QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 087 (5807) **15 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Prezident İlham Əliyev Azərbaycanın Belçikadakı səfirliyinin yeni binasının açılışında iştirak edib



Səh 2

5

"Onlar Azərbaycanın yüksələn nüfuzu qarşısında vahiməyə düşürlər"



5

Mariya Suvorovskaya: Bakıda Avropa Liqasının finalı Azərbaycanın nüfuzunu göstərən çoxdan gözlənilən bir hadisədir



12

Emin Milli nəyə görə Əli Kərimlinin düşməninə çevrildi?



# Prezident İlham Əliyev Azərbaycanın Belçikadakı səfirliyinin yeni binasının açılışında iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Brüsseldə ölkəmizin Belçika Krallığındakı səfirliyinin yeni binasının açılışında iştirak edib.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov və binanın dizayneri, Belçikanın tanınmış memarı Filip Vanhereveqe dövlətimizin başçısına görülən işlər barədə məlumat verdilər. Brüsselin Tervuren prospektində yerləşən bina 2014-cü ildə Azərbaycan Respublikasının Belçika Krallığındakı səfirliyi tərəfindən alınıb, daxili əsaslı təmir edilib, fasadı isə yenilənib. Bina Avropa təsisatlarına çox yaxın məsafədə, Parmentier parkının yaxınlığında, çoxsaylı diplomatik missiyaların yerləşdiyi prospektdədir.

Azərbaycan Prezidenti binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı binada yaradılan şəraitlə tanış oldu. Binanın girişi dövlət rəmzləri ilə bəzədilib. Burada dünyanın müxtəlif şəhərlərinin məşhur muzeylərində saxlanılan Azərbaycan xalçalarının fotoları, həmçinin 1870-ci il Təbriz xalçası nümunəsində əllə toxunmuş xalça da var. Daxili tərtibat işləri zamanı Qobustan qayaüstü rəsmlərinə də yer ayrılıb. Binanın birinci və ikinci mərtəbələri səfirliyin iş otaqları üçün nəzərdə tutulub. Burada səfirin, müşavirlərin və digər əməkdaşların, həmçinin konsulluq xidmətinin işçilərinin otaqları bütün zəruri avadanlıqla təchiz olunub. Bir sözlə, əməkdaşların səmərəli fəaliyyəti üçün binada hər cür şərait var. Binada, həmçinin səfirlik işçilərinin mənzilləri yerləşir.

Dövlətimizin başçısı səfirliyin əməkdaşları ilə xatirə şəkli çəkdirdi. Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatdı.













# "Pekin Ekspo 2019" Botanika Sərgisində Azərbaycan pavilyonunun rəsmi açılışı olub

Mayın 14-də Çin Xalq Respublikasının paytaxtında "Pekin Ekspo 2019" Botanika Sərgisi çərçivəsində Azərbaycan pavilyonunun rəsmi açılışı olub. AZƏRTAC xəbər verir ki, açılışda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.



"Təbiəti qoruyaq, daha yaxşı yaşayaq" mövzusunda keçirilən botanika sərgisində Azərbaycan milli pavilyonu Heydər Əliyev Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə hazırlanıb. "Azərbaycan: təbiət və incəsənətin harmoniyası" adlanan milli pavilyonun ümumi konsepsiyası ölkəmizin öz tarix və ənənələrinə sadiq qalaraq daim inkişafda olduğunu nümayiş etdirir. Pavilyonun spiralvarı forması Azərbaycanın davamlı, sabit inkişafını və dinamikliyini, eksteryerdə qoyulan nar ağacı isə ölkənin məhsuldar gələcəyini xarakterizə edir.





Pavilyonun interyer dizaynı ölkəmizin adət-ənənələrini nümayiş etdirir. Azərbaycan xalçalarının timsalında incəsənət və təbiətin yaxın əlaqəsi diqqətə çatdırılır, ətraf mühitin qorunmasının vacibliyi vurğulanır. Nümayiş olunan xalçalar Azərbaycanın xalçaçılıq məktəbləri üzrə dörd hissəyə bölünüb: Qarabağ, Təbriz, Gəncə-Qazax, Quba-Şirvan. Hər bir bölgəyə xas xalça motivləri xüsusi proyeksiya vasitəsilə döşəmə üzərində əks olunur.



Bundan başqa, Xarıbülbül gülünü rəqəmsal formatda əks etdirən eksponat da nümayiş etdirilir.

Sərgi ziyarətçiləri Azərbaycan pavilyonunda milli musiqi alətlərimizlə tanış ola, videomateriallar vasitəsilə Azərbaycan musiqisini dinləmək və milli rəqslərimizə baxmaq imkanı əldə edə bilərlər. Burada, həmçinin Azərbaycan milli geyimləri də təqdim olunur.

Qeyd edək ki, pavilyonda xalçalarda istifadə olunan rənglər əsasında landşaft dizaynı hazırlanıb və buna uyğun bitki çeşidləri əkilib. Burada, həmçinin Azərbaycan təbiətinə xas olan ağac və çiçəklər təqdim olunur.

Açılış mərasimində Azərbaycan incəsənət ustalarının ifasında konsert proqramı təqdim olunub. Sərgi ziyarətçiləri Azərbaycan musiqisini dinləyib, rəqslərinə tamaşa ediblər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Asiya sivilizasiyalar dialoqu" konfransı çərçivəsində iştirakçı ölkələrin mədəni irsinin nümayiş olunduğu sərgidəki Azərbaycan stendi ilə də tanış olub.

# "Çin Azərbaycan ilə əməkdaşlığın daha da dərinləşməsi üçün səylərini davam etdirəcək"

*Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Çinin xarici işlər nazirinin müavini ilə görüşüb*



Mayın 14-də Çin Xalq Respublikasında səfərdə olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekində bu ölkənin xarici işlər nazirinin müavini Lı Yunçen ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Lı Yunçen iki ölkə arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Çinin Azərbaycan ilə əməkdaşlığının daha da dərinləşməsi üçün səylərini davam etdirəcəyini bildirib. O, Azərbaycanın mədəni irsi ilə seçilən ölkə olduğunu vurğulayaraq, son dövrlər Çində Azərbaycan mədəniyyəti ilə bağlı müxtəlif tədbirlərin keçirildiyini qeyd edib. Bildirib ki, bu cür tədbirlər xalqlarımız arasında dostluq münasibətlərinin dərinləşməsinə böyük töhfələr verir.

Nazir müavini Pekində keçirilən "Asiya sivilizasiyalar dialoqu" konfransında və konfrans çərçivəsində təşkil olunan tədbirlərdə Azərbaycanın fəal iştirakını məmnunluqla vurğulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinin xalqlarımızın hələ tarixi İpək Yolu dövründən təməli qoyulan dostluq münasibətlərini daha da inkişaf etdirdiyini deyib.

Ötən ay Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Pekində 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakını yada salan Leyla Əliyeva diqqətə çatdırıb ki, ölkəmiz Çinin bu təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olmaqla yanaşı, bu layihə çərçivəsində iqtisadi, humanitar, mədəni sahələrdə əməkdaşlığı dərinləşdirməyə çalışır. Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanda Çinə, onun mədəniyyətinə, dilinə, ənənəvi təbabətinə böyük maraq olduğunu deyib. Leyla Əliyeva Heydər Əliyev Fondunun həmin istiqamətlərdə Çin ilə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirib.

# Pekində Leyla Əliyevanın Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri ilə görüşü olub





Mayın 14-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekində Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Li Syaolin ötən il Azərbaycana səfərini, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşlərini məmnunluqla xatırlayıb.

Xanım Li Syaolin rəhbərlik etdiyi təşkilatın Azərbaycan ilə əlaqələrindən danışaraq, bu işdə Heydər Əliyev Fondu ilə sıx əməkdaşlığın xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verdiyini deyib.

Leyla Əliyeva Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında səmərəli əməkdaşlığı xüsusi vurğulayaraq, bu çərçivədə təşkil olunan tədbirlərdən danışıb. Gələcəkdə bu cür layihələrin qarşılıqlı olaraq davam etdiriləcəyinə əminlik ifadə olunub.

# Bakıda Beynəlxalq Sosial Təminat Assosiasiyasının Avropa Regional Sosial Təminat Forumu işə başlayıb

***Mayın 14-də Bakıda Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Avropa Regional Sosial Təminat Forumu işə başlayıb. Üç gün davam edəcək forumda BSTA-dan, digər beynəlxalq qurumlardan və 35 ölkədən nümayəndələr iştirak edirlər. AZƏRTAC xəbər verir ki, forumun açılışında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın Avropa qurumları ilə əməkdaşlığının daim inkişaf etdiyini vurğulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatların sosial təminat sahəsində də uğurlu nəticələr verdiyini, sosial müdafiə sisteminin gücləndirilməsi və müasir, şəffaf iş üsulları üzərində qurulması istiqamətində mühüm addımlar atıldığını deyib.***











Ə.Əhmədov aparılan islahatlarda Avropanın müvafiq təşkilatları, qitənin ölkələri ilə əməkdaşlığa, fəal təcrübə mübadilələrinə xüsusi önəm verildiyini bildirib. O, növbəti Avropa Regional Sosial Təminat Forumunun Azərbaycanda keçirilməsi qərarına görə BSTA-ya minnətdarlıq ifadə edib, ötən dövrdə mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən Azərbaycanda bu forumun da yüksək səviyyədə təşkil olunduğunu deyib.

BSTA-nın prezidenti Yoakim Bröyer bu gün Avropa ölkələrinin sosial təminat sistemlərində idarəçilik mexanizmlərinin əsas çağırışlara uyğun təkmilləşdirilərək mükəmməl şəkildə qurulması, problemlərin həll olunması üçün aparılan islahatlarda qarşılıqlı əməkdaşlıq mühitinin, qabaqcıl təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. O, hazırkı forumun da bu məqsədə xidmət etdiyini və Avropa məkanının sosial təminat sistemlərindəki aktual məsələlərə innovativ yanaşmaların təqdim edilməsi və bölüşülməsi üçün əlverişli imkan yaratdığını deyib. Y.Bröyer Azərbaycanda əldə olunan sosial-iqtisadi nailiyyətləri, sosial sahədə innovativ yenilikləri maraqla izlədiklərini bildirib. BSTA prezidenti ölkəmizin bu foruma layiqli şəkildə ev sahibliyi etməsindən razılıq ifadə edib, buna görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev 15 ildir ki, BSTA ilə səmərəli əməkdaşlıq həyata keçirən ölkəmizin ötən dövrdə bu təşkilatın bir sıra tədbirlərinə ev sahibliyi etdiyini deyib. O bu dəfə BSTA-nın Avropa Regional Sosial Təminat Forumu kimi yüksək səviyyəli mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsinin fəxr hissi doğurduğunu bildirib. Nazir Avropa məkanında sosial təminatın inkişafına, gələcək sosial təhlükəsizliyin formalaşmasına nail olunması üçün birgə müzakirələrin və təcrübə mübadilələrinin aparılması baxımından forumun əhəmiyyətini qeyd edib.

S.Babayev Prezident İlham Əliyevin uğurlu sosial inkişaf kursuna uyğun olaraq ölkədə dinamik iqtisadi inkişafın təmin edilməsi şəraitində əldə edilən sosial uğurları, həmçinin son aylarda həyata keçirilən mühüm islahatları, atılan əhəmiyyətli addımları diqqətə çatdırıb. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsi olan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) konsepsiyasını qeyd edib. Azərbaycanın sosial sahədə özünəməxsus yeni innovativ təcrübəsi - yeni yaradılan DOST Agentliyi və ilk "DOST" mərkəzi, 126 növdə sosialyönümlü xidmətin "bir pəncərə"dən, tam şəffaf və operativ, nəzakətlilik və son nəticədə vətəndaş məmnunluğuna nail olunması prinsipi ilə təqdim edilməsinə imkan verən "DOST" mərkəzləri şəbəkəsinin genişləndirilməsi üçün işlərin aparıldığını diqqətə çatdırıb.

Nazirliyin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemində 18 altsistemin yaradıldığını deyən S.Babayev "E-sosial" internet portalı, "Məşğulluq" altsistemi, cari ilin əvvəlindən ölkədə ilk proaktiv xidmət kimi tətbiqinə başlanan avtomatlaşdırılmış pensiya təyinatı mexanizmi haqqında məlumat verib. Artıq on min nəfərə elektron qaydada pensiya təyin olunduğunu, bu ilin əvvəlindən "İşsizin DOSTu" proqramının bu günə kimi 36 min nəfər işsizin əmək müqaviləsi ilə ödənişli ictimai işlə təminatına imkan verdiyini deyib.

Nazir bu ilin ötən dövründə minimum pensiyaların və minimum əməkhaqqının 40 faiz, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırıldığını qeyd edib. Şəhid ailələrinə qayğının artırılması, onların birdəfəlik ödənişlə təminatı, qaçqın və məcburi köçkünlərin müavinətlərinin, tələbələrin təqaüdlərinin artırılması, devalvasiyanın təsirlərinin aradan qaldırılması, fiziki şəxslərin problemli kreditlərinin həlli sahəsində atılan əhəmiyyətli addımları diqqətə çatdırıb. O, təkcə cari ilin ötən dövründə reallaşdırılan uğurlu sosial paketin 3 milyon insanın rifahına ciddi dəstək olduğunu bildirib.

S.Babayev sosial təminat sistemi qarşısında dayanan çağırışlara uyğun islahatların davam etdirildiyini, pensiya sisteminin yeni inkişaf konsepsiyasının hazırlandığını, eləcə də sosial müavinət və əlilliyin qiymətləndirilməsi, reabilitasiya, əmək müfəttişliyi sistemlərinin, məşğulluq xidmətlərinin təkmilləşdirilməsi sahələrində aparılan islahatları, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərindəki artım tempini qeyd edib. Nazir, həmçinin əlilliyi olan şəxslərin sosial müdafiəsi işlərindən bəhs edib, mütərəqqi beynəlxalq yanaşmalar da nəzərə alınmaqla "Əlilliyi olan şəxslərin hüquqları haqqında" yeni qanunun qəbul edildiyini diqqətə çatdırıb. Şəhid ailələri və müharibə əlillərinin mənzillə, müharibə əlillərinin minik avtomobili ilə təminatı proqramının ildən-ilə dəfələrlə genişləndirildiyini bildirib.

Daha sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimlinin moderatorluğu ilə Azərbaycanın sosial müdafiə sisteminə, bu sahədə aparılan islahatlara dair panel iclas keçirilib. İclasda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov, nazirliyin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov, nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Fuad Musayev tərəfindən təqdimatlar edilib.

Sonra mətbuat konfransı keçirilib və kütləvi informasiya vasitələri nümayəndələrini maraqlandıran suallar cavablandırılıb. Forum "Avropada sosial təminat sahəsində əsas çağırışlar" mövzusunda BSTA-nın baş katibi Marselo Abi-Ramia Kaetanonun çıxışı və onun moderatorluğu ilə müvafiq mövzuda panel iclasının keçirilməsi ilə davam edib. Forumun növbəti iki gün üçün gündəliyinə "Sosial təminatın idarə olunmasında mükəmməllik və yenilik" və "Avropanın sosial təminat sahəsində gələcəyinin qurulması" mövzularında plenar iclasların və paralel sessiyaların keçirilməsi daxildir.

# Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 58-ci Venesiya Biennalesində təmsil olunur




Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 58-ci Venesiya Biennalesi - Beynəlxalq İncəsənət Sərgisində təmsil olunur. Fonddan AZƏRTAC-a bildirilib ki, Biennalidə ölkəmiz "Virtual reallıq" ("Virtual Reality") mövzusundakı milli pavilyonla iştirak edir.

Kampo Santo Stefanodakı XIV əsrə aid Lezze Sarayında açılan ekspozisiyada rəssam və heykəltəraşlar Zeyqəm Əzizov, Orxan Məmmədov, Zərnişan Yusif, Kənan Əliyev və Ülviyyə Əliyevanın əsərləri təqdim olunur. Pavilyondakı multimedia əsərləri, instalyasiya və heykəllərin mövzusu bunları əhatə edir: insanlar hər gün heyrətamiz xəbər axını ilə üzləşir. Dünyada hər bir insan gün ərzində təxminən 150 dəfə telefonunu yoxlayır, 2 milyarddan çox insan sosial şəbəkələrdən istifadə edir. Saxta xəbərlər sosial şəbəkələr vasitəsilə daha çox paylaşılır, aparılan müzakirələrin əksər hissəsi isə onların doğru olub-olmadığı ilə bağlı deyil. 58-ci Venesiya Biennalesi noyabrın 24-dək davam edəcək. Venesiya Biennalesi müasir incəsənət sahəsində dünyanın ən nüfuzlu sərgilərindən hesab olunur və iki ildən bir keçirilir. Azərbaycan bu beynəlxalq layihədə 2007-ci ildən iştirak edir.

# "Fuji Optical" şirkətinin Azərbaycandakı xeyriyyəçilik fəaliyyəti əsl humanizm nümunəsidir



Mayın 14-də Azərbaycan Respublikasının Nazirlər Kabinetində Yaponiyanın "Fuji Optical" şirkətinin rəhbəri Akio Kanainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub. AZƏRTAC xəbər verir ki, görüşdə Baş nazirin müavini Əli Əhmədov "Fuji Optical" şirkətinin ölkəmizdə həyata keçirdiyi xeyirxah missiyaların yüksək qiymətləndirildiyini söyləyib. O, minlərlə qaçqın, məcburi köçkün və aztəminatlı ailəyə yüksəkkeyfiyyətli eynəklərin paylanıldığını, onların ödənişsiz göz müayinəsi xidmətlərindən faydalandığını, bunun əsl humanizm nümunəsi olduğunu vurğulayıb.

Görüşdə qonaqlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verilib. Akio Kanai Azərbaycanda bu xeyirxah missiyanı həyata keçirməkdən məmnunluğunu bildirib. O, ölkəmizdə bu kimi xeyriyyə fəaliyyətlərini davam etdirəcəklərini diqqətə çatdırıb. A.Kanai missiyanın ərsəyə gəlməsində köməyi olan hər kəsə, o cümlədən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə və xalqına minnətdarlığını bildirib.

# Mariya Suvorovskaya: Bakıda Avropa Liqasının finalı Azərbaycanın nüfuzunu göstərən çoxdan gözlənilən bir hadisədir



Bakıdakı Olimpiya stadionunda keçiriləcək Avropa Liqasının finalı Azərbaycanın nüfuzunu göstərən, ölkənin turizm potensialını artıran çoxdan gözlənilən bir hadisədir. Bunu AZƏRTAC-ın müxbirinə "Biznes-Dialoq-Media" nəşriyyat-kommunikasiya qrupunun baş direktoru Mariya Suvorovskaya söyləyib. O əlavə edib: "Düşünürəm ki, futbol həvəskarları təkcə oyunun özündən deyil, həm də Bakının ab-havasından, qastronomik və mədəni proqramlardan zövq alacaqlar".

Mariya Suvorovskaya tez-tez Azərbaycanın qonağı olur. Bu yaxınlarda Bakıda və Moskvada onun "Kaçeli nad Kaspiem" kitabının təqdimatları keçirilib. O, bu günlərdə Azərbaycan paytaxtında təqdimatı keçirilən "Ya dışu Baku" mahnısının sözlərinin müəllifi və ifaçısıdır. "Bakıya demək olar ki, yeddi ildir ki, gəlirəm. Əvvəlcə turist kimi, sonra işgüzar və humanitar məsələlər üzrə. İki gün əvvəl Azərbaycanda kitabımın təqdimatından qayıtmışam. Fəaliyyətimlə əlaqədar çoxlu səyahət edirəm və müxtəlif şəhərlərdə, ölkələrdə oluram. Ölkəyə gələn hər bir insan ənənəvi olaraq Bakıya xas olan xeyirxahlıq, səmimilik və qonaqpərvərliklə qarşılaşır. Bilirəm ki, Azərbaycanda keçirilən böyük beynəlxalq musiqi və idman tədbirlərinə gələn turistlər təkcə Bakıdakı gözəllik və rəngarəngliyi deyil, həm də təhlükəsizliyi yüksək qiymətləndirirlər. Həmişə köməyə gəlməyə, izah etməyə, yol göstərməyə hazır olan sakinlərin səmimi münasibəti Azərbaycanın çox böyük üstünlüyüdür. Ölkədə çox rahat şərait var, mən bunu öz təcrübəmdən bilirəm. İslam Həmrəyliyi Oyunları, Formula 1 və digər tədbirlər Bakını tədbir turizminin iri mərkəzinə çevirib", -deyə M.Suvorovskaya vurğulayıb.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mayın 14-də Qax, Salyan, Şabran, Tovuz və Xocalı rayonlarından olan sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır. Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb. Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# "Onlar Azərbaycanın yüksələn nüfuzu qarşısında vahiməyə düşürlər"



"Çox təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycana qarşı ciddi kampaniya aparanlar müxtəlif bəhanələrdən istifadə edirlər". SİA-nın verdiyi məlumata görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katini Əli Əhmədov jurnalistlərə açıqlamasında deyib. Ə.Əhmədov bildirib ki, bu bəhanələrin sırasında idman yarışları da var: "Bu, birinci dəfə deyil. Azərbaycanda siyasi xarakter daşımayan mötəbər tədbirlər keçirilən zaman ölkəmizə qarşı fəaliyyət göstərən qüvvələr hərəkətə keçir və Azərbaycanın imicinin üzərinə kölgə salmağa çalışırlar. Bu, ölkəmizin dünyada artan nüfuzunun bilavasitə nəticəsidir. Azərbaycanı sevməyən, bizə qarşı kampaniya aparan qüvvələr ölkəmizin nüfuzunun artmasından narahatlıq keçirir və çirkin əməllərindən qalmırlar".

Baş nazirin müavini burada erməni lobbisinin çirkin fəaliyyətini də qeyd edib: "Əlbəttə ki, onlar Azərbaycanın yüksələn nüfuzu qarşısında vahiməyə düşürlər. Azərbaycana qarşı çirkin kampaniyanı gücləndirirlər. Onlara dəstək verənlər də var. Bütün bu kampaniyalar Azərbaycanın müxtəlif tədbirlərin keçirilməsinə ev sahibliyi etməsinə əngəl olmayacaq. Mayın sonunda baş tutacaq idman tədbiri də yüksək səviyyədə keçiriləcək". Ə.Əhmədov vurğulayıb ki, Azərbaycan sabit və təhlükəsiz ölkədir. Dünyanın hər bir yerində bunu bilirlər: "Azərbaycan sabitliyi və təhlükəsizliyi ilə dünyada birmənalı şəkildə tanınır. Ölkəmizin əhəmiyyəti etiraf edilir və heç bir qarayaxma kampaniyası bunun qarşısını ala bilməyəcək".

***Ceyhun Rasimoğlu***

# Darya Qrebtsova: Bakıya bir dəfə səyahət edən turistlər və azarkeşlər bu şəhərə bir daha gəlmək istəyirlər



Azərbaycan iri beynəlxalq tədbirlərin keçirilməsi üzrə zəngin təcrübəyə malikdir. Bunu AZƏRTAC-ın müxbiri ilə söhbətində Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktor müavini Darya Qrebtsova söyləyib. Politoloq əlavə edib: "Birinci Avropa Oyunları, Formula 1, İslam Həmrəyliyi Oyunları, həmçinin Bakı Beynəlxalq Humanitar Forumu, Sivilizasiyalar Alyansı kimi və digər beynəlxalq forumlar və konfranslar ən yüksək səviyyədə təşkil olunub. Azərbaycanda müasir stadionlar, rahat otellər və maraqlı görməli məkanlar var. Bakıya bir dəfə səyahət edən turistlər və azarkeşlər bu şəhərə bir daha gəlmək istəyirlər. Bu cür irimiqyaslı tədbirlərin təşkil olunması avropalı turistlərin özləri üçün yeni ölkəni kəşf etməsi, onun mədəniyyəti ilə tanış olması üçündür. Bu, ölkəni dünya ictimaiyyətinə tanıtmaq üçün əla vasitədir. Bakıdan matçın translyasiyasına bütün dünya baxacaq".

Darya Qrebtsova vurğulayıb ki, Azərbaycanda bir neçə istiqamətdən turist axını formalaşıb. "Ən çox axın Rusiyadandır, ondan azacıq aşağı sayda turistlər isə ərəb ölkələri və İrandan gəlirlər. Hələ ki, avropalı turistlər Azərbaycanın turizm baxımından necə maraqlı ölkə olduğu, burada çoxlu qeyri-adi və unikal görməli məkanları görəcəkləri barədə az məlumatlıdırlar. "Azərbaycanın səhər yeməyi" xüsusi diqqətə layiqdir. Onun dadına baxın hər kəs artıq bu nemətlərə biganə qala bilməz. UEFA Avropa Liqasının final matçı avropalı turistlərə yeni maraqlı ölkəni kəşf etmək imkanı verəcək", -deyə Darya Qrebtsova qeyd edib.

# Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası istifadəyə verilib

***Muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafı Ordubad rayonunu yeni inkişaf mərhələsinə çıxarıb. Qədim Ordubad şəhəri bu gün həm də müasirliyi ilə diqqəti cəlb edir. Rayon mərkəzində və kəndlərdə aparılan geniş quruculuq işləri ulu öndər Heydər Əliyev ideyalarının bəhrələridir. Yaşayış səviyyəsinin yüksəlməsi, yeni iş yerlərinin açılması Ordubadda məskunlaşmanın və əhali sayının artmasına səbəb olub. Bu il də rayonda geniş quruculuq işləri aparılır, yeni inzibati binalar və sosial obyektlər tikilərək istifadəyə verilir.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 14-də Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib. Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək deyib ki, muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, aparılan quruculuq işləri Ordubad rayonunu da əhatə edib. Rayonda yaradılan müasir infrastruktur dövlətimizin iqtisadi gücünün daha bir göstəricisinə çevrilib. Bu il rayonun Dəstə kəndində 900 şagird yerlik məktəb binası, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Hazırda Vənənd kəndində yeni məktəb binası, kənd mərkəzi, həkim ambulatoriyası, Uşaq Musiqi Məktəbi və xidmət mərkəzinin tikintisi davam etdirilir. Bundan başqa Ordubad şəhərində 28 mənzilli yaşayış binası inşa olunur. Darkənddəki qədim dəyirman bərpa edilir, Anaqut kəndində yeni məscid binası tikilir. Elşad Məmmədov yaradılan şəraitə və göstərilən qayğıya görə rayon əhalisi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət orqanlarının əməkdaşlarını və ictimaiyyət nümayəndələrini təbrik edərək deyib: Ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkəmizdə sabitlik, iqtisadi inkişaf və tərəqqi vardır. Görülən işlər bunu bir daha təsdiq edir. İnsanların həyat səviyyəsi yüksəldilir, iş şəraiti yaxşılaşdırılır. Bu da dövlət orqanlarında qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsinə imkan verir. Ordubad Rayon İcra Hakimiyyətinin binasında yaradılan şərait də imkan verəcək ki, kollektiv üzərinə düşən vəzifələri layiqincə yerinə yetirsin.

Ali Məclisin Sədri deyib: Ordubad rayonu bir şəhər, üç qəsəbə və 43 kənddən ibarət olmaqla icra hakimiyyəti tərəfindən idarə olunur. İcra hakimiyyətinin kollektivi rayonun siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində fəaliyyətin normal təşkilini həyata keçirir. Bu tədbirlərin uğurla həyata keçirilməsi üçün müasir iş şəraiti olmalıdır. Ona görə də Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası yenidən quruldu. Bütün bunlar dövlətimizin öz vətəndaşlarına, dövlət qulluqçularına göstərdiyi qayğının daha bir nümunəsidir. Binada fəaliyyət göstərəcək dövlət qurumlarının əməkdaşları isə qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməli, rayonun inkişafına öz töhfələrini verməlidirlər.



“Bu ilin mart ayından etibarən Ordubad rayonunun əhalisi 50 min nəfəri ötmüşdür. Ona görə də icra strukturunda dəyişiklik edilmiş, Ordubad Rayon İcra Hakimiyyətinin ştat cədvəlinə birinci müavin və digər ştatlar əlavə edilmiş, kollektivin əməkhaqqısı artırılmışdır”, - deyən Ali Məclisin Sədri bu münasibətlə tədbir iştirakçılarını və sakinləri təbrik edib.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin “Ordubad Azərbaycanın incisidir” fikrini xatırladaraq deyib: Ordubad milli dəyərlərimizin, tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin qorunub yaşadıldığı rayondur. Bu gün Ordubad rayonundakı tarixi abidələr - su dəyirmanları, körpülər, hamamlar bərpa olunur. Bununla yanaşı rayonun müasir inkişafı da diqqətdə saxlanılır, yeni məktəblər, xəstəxanalar, həkim ambulatoriyaları, yollar, su-kanalizasiya sistemləri qurularaq əhalinin istifadəsinə verilir. Lakin quruculuq işləri aparmaq işin bir tərəfidir. Əsas məsələ onlardan səmərəli istifadə etmək və qorumaqdır. Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binasında yerləşən 6 dövlət və ictimai təşkilatın kollektivləri də səmərəli fəaliyyət göstərməli, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.

Ali Məclisin Sədri qurulanlardan səmərəli istifadə olunacağına əminliyini bildirib, bir daha kollektivi təbrik edib.

Sonra binaya baxış olub. Bildirilib ki, 4 mərtəbəli inzibati binada 43 yerlik müşavirə zalı, 27 iş otağı, 124 yerlik iclas zalı, arxiv, anbar, qazanxana və yeməkxana yerləşir. Birinci mərtəbədə vətəndaşların qəbulu üçün otaqlar vardır. İkinci mərtəbədə icra hakimiyyətinin kollektivi, üçüncü mərtəbədə isə Statistika, Gənclər və İdman idarələri, Birləşmiş Həmkarlar İttifaqları Şurası, “El həyatı” qəzetinin redaksiyası, Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası, eləcə də Qızıl Aypara Cəmiyyəti üçün otaqlar ayrılıb. İş otaqlarında kompüterlər quraşdırılıb, müasir şərait yaradılıb.

Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Fərrux Nağızadə minnətdarlıq edərək deyib ki, icra hakimiyyətinin yeni binası müasir memarlıq əsəridir. Yaradılan iş şəraiti fəaliyyət üçün geniş imkanlar açır. Üzərimizə düşən əsas vəzifə gənclərlə işə diqqəti daha da artıraraq bugünkü inkişafımızı, sabitliyimizi təbliğ etməkdir.

Ümummilli lider Heydər Əliyevin binanın həyətindəki büstünün ətrafı abadlaşdırılıb, müasir işıqlandırma sistemi çəkilib, yaşıllıq salınıb.

### Dövlət qurumları yeni binada fəaliyyət göstərəcək



Mayın 14-də Ordubad şəhərində dövlət qurumları üçün yeni bina istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Məlumat verilib ki, bina 2 mərtəbədən ibarətdir. Birinci mərtəbədə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Ordubad rayon şöbəsi, Ordubad Rayon Qeydiyyat Şöbəsi, ikinci mərtəbədə Ordubad Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik və Ordubad bələdiyyəsi yerləşir. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Ordubad rayon şöbəsi üçün kompüterlə təmin edilmiş müasir iş otaqları istifadəyə verilib. Fiber-optik xəttin çəkilməsi, sürətli internet və proqram təminatı torpaq və əmlak məsələləri ilə bağlı sənədləşmənin elektron formada aparılmasına imkan verir.

Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə Əli Qənbərov yaradılan şəraitə görə minnətdarlıq edərək deyib: Aparılan abadlıq və quruculuq işləri, tikilən məktəblər, çəkilən yollar, salınan park və xiyabanlar qədim Ordubad şəhərin simasını xeyli dəyişib. Yeni iş yerləri açılıb, insanların rifahı yaxşılaşıb. Həmçinin şəhərdə yeni içməli su və kanalizasiya sistemləri quraşdırılıb. Bütün bunlar dövlətimizin insan amilinə verdiyi dəyərin, göstərdiyi qayğının təzahürüdür.

Ordubad Rayon Qeydiyyat Şöbəsinin rəisi Səriyyə Hüseynova fəaliyyəti üçün hərtərəfli şəraitin olduğunu bildirib və minnətdarlıq edib.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunması, dövlət təşkilatları ilə vətəndaşlar arasında sənəd dövriyyəsinin, xüsusilə də əmlak və torpaq məsələləri ilə bağlı müraciətlərin elektron formada qəbulu və cavablandırılması barədə tapşırıqlar verib.

### Culfa-Ordubad avtomobil yolunun tikintisi davam etdirilir

Bu gün muxtar respublikada yol təsərrüfatının inkişafına diqqət artırılır. Qurulan müasir yollar iqtisadiyyatın şaxələndirilməsinə, yaşayış məntəqələrinin və turizmin inkişafına töhfə verir. Ölkə Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq hazırda Culfa-Ordubad magistral avtomobil yolu da yenidən qurulur.

Mayın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov avtomobil yolunda görülən işlərlə maraqlanıb.

Məlumat verilib ki, yolun 18 kilometrlik hissəsində tikinti işləri yekunlaşıb, bir körpü inşa olunub, asfalt örtük salınıb. Hazırda Gilançay üzərindəki körpünün yenidən qurulması davam etdirilir. Tikinti işləri aparılarkən yolda yeni su keçidləri qoyulur, gələcəkdə avtomobillərin rahat və təhlükəsiz hərəkəti üçün tədbirlər görülür, tikinti normalarına əməl olunur. Ali Məclisin Sədri keyfiyyətin əsas götürülməsi, çay yataqlarında selqırıcı bəndlərin tikilməsi, eləcə də kənd yollarının təmirinə diqqət yetirilməsi barədə tapşırıqlar verib.

# Mətbuat Şurası "Təzadlar" qəzetini "qara siyahı"ya saldı



***Azərbaycan Mətbuat Şurasının "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının və MŞ-nin Apellyasiya komissiyasının 1 mart 2019-cu il tarixdə keçirilmiş birgə iclasının rəyinə əsasən "Təzadlar" qəzetinin adı Şuranın "qara siyahı"sına daxil edilib. SİA-nın verdiyi məlumata görə, bunun səbəbi "Təzadlar" qəzetinin baş redaktoru Asif Mərziliyə izah olunub.***

Eyni zamanda, ona "qara siyahı"dan çıxmağın prosedurları barədə də məlumat verilib. Təəssüflər olsun ki, A.Mərzili "Təzadlar" qəzetinin "qara siyahı"ya daxil edilməsini şərtləndirən nöqsanları aradan qaldırmaq, fəaliyyətində dönüş etmək əvəzinə fərqli yol seçib. O, Azərbaycan Mətbuat Şurasına və MŞ-nin İdarə Heyətinin ayrı-ayrı üzvlərinə qarşı şər, böhtan atmaqla məşğuldur. Maraqlıdır ki, A.Mərzili MŞ İdarə Heyətinin bəzi üzvlərini sərt tənqidə məruz qoyduğu halda, qurumun digər üzvlərinə belə demək mümkünsə, "separat danışıqlar" təklif edir, bir növ, ikitirəlik yaratmağa köklənir.

Peşəkarlar, o cümlədən, diqqətli oxucular MŞ-nin fəaliyyəti, onun ictimai qınaq forması kimi seçdiyi "qara siyahı" barədə məlumatlıdırlar. Hər kəs bilir ki, Şura medianın özünütənzimləmə qurumu qismində jurnalistlərin "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"na (AJPDQ) nə dərəcədə riayət etmələrinə nəzarəti həyata keçirir, peşə prinsiplərini pozan KİV-lərə yol verdikləri yanlışlıqları xatırladır, nöqsanların aradan qaldırılması üçün tövsiyələr ünvanlayır. Qurumun AJPDQ-nın prinsiplərini düşünülmüş şəkildə, hansısa maraqlar naminə pozmuş KİV-lərə qarşı ictimai qınaq tədbiri - "xəbərdarlıq", "ciddi xəbərdarlıq" və nəhayət "qara siyahı"ya daxil etməkdir. "Təzadlar" ilə bağlı hər 3 prosedur tətbiq olunub: müxtəlif vaxtlarda yayımladığı və AJPDQ-nın prinsiplərini kəskin şəkildə pozulduğu məqalələrinə görə nəşrə xəbərdarlıqlar edilib. Əlbəttə, nəticə çıxarmadığı üçün onun adı "qara siyahı"dadır.

Tövsiyələri, xəbərdarlıqları saya salmayan A.Mərzili yalnız adının "qara siyahı"ya düşməsindən sonra prosesi ciddiyə alıb. Lakin yenidən yanlış addımlar atmaqda davam edir. Hazırda "Təzadlar" qəzetinin səhifələrində AJPDQ-nın prinsiplərini ciddi şəkildə pozan, paralel olaraq, MŞ-nin rəylərini şübhə altına alan məqalələr yayımlanır, oxucuları çaşdırmağa cəhd göstərilir. Ancaq cənab Mərzili istəsəydi, durum bu qədər kəskin həddə çatmazdı.

MŞ monitorinq qrupu "Təzadlar" qəzeti və A.Mərzili barədə vətəndaşlardan, ayrı-ayrı idarələrdən daxil olmuş şikayətlər üzrə təqribən 30-a yaxın məqaləni təhlil edib. Bəlli olub ki, bu yazılarda ayrı-ayrılıqda ən yaxşı halda 30-a qədər səhv var və bu səhvlərin hər biri narazılıq üçün əsas verir. Yanlış, yalan yazmaq, marağı tələb edəndə məsələləri şişirdib əndazədən çıxarmaq, şər və böhtan atmaq, istənilən vasitə ilə şəxsi maraqlarını təmin etməyə çalışmaq Asif Mərzilinin ənənəvi iş üslubudur. Belə yanaşma AJPDQ-ya, ümumilikdə jurnalistika prinsiplərinə ziddir.

Cənab Mərzilinin bu yanaşma tərzi "Təzadlar"ı dəfələrlə çətin duruma salıb. Bəzən belə dəst-xətt ölkəmizin maraqlarına zidd olub. Diqqət yetirək, "Təzadlar" qəzeti 2009-cu ildə Türkiyənin Azərbaycandakı səfiri Hulusu Kılıç barədə məqalə dərc etmişdi. Məqalə Mərzilinin həsəd və qısqanclıq hissləri zəminində yazılmışdı. Reallıq bu idi ki, keçmiş səfir həmin vaxtlarda redaksiyalara baş çəkir və kiçik xatirə hədiyyələri təqdim edirdi. "Təzadlar" isə bunu Səfirliyin guya mətbuatı ələ alması kimi göstərmişdi. Halbuki səfir "Təzadlar"ın redaksiyasını ziyarət etsəydi, bu bəsit motivə əsaslanmış iddia ortaya çıxmazdı. Başqa cür düşünmək üçün əsas yoxdur. Buna və digər məsələlərə görə MŞ qəzetin adını "qara siyahı"ya daxil etmişdi. Lakin beş illik fasilədən sonra Mətbuat Şurası A.Mərzilinin xahişini nəzərə alaraq "Təzadlar"ın adını "qara siyahı"dan çıxartdı. Həmin andan baş redaktor yenidən öz neqativ əməllərinə qayıtdı.

A.Mərzili və rəhbərlik etdiyi "Təzadlar" qəzeti ilə əlaqədar şikayətlər o qədər çoxalıb ki, onları araşdırmaq, təhlil etmək, səhvləri qruplaşdırmaq xeyli vaxt aparır. Təsəvvür edin ki, MŞ-nin Şikayətlər üzrə Komissiyasının son bir il müddətində keçirdiyi bütün iclasların gündəliyində "Təzadlar" qəzetindən şikayətin müzakirəsi yer alıb. Komissiyanın 20 noyabr 2018-ci il tarixli iclasında (BDU-nun dosenti Rəşid Cabbarovun şikayəti üzrə) və 14 dekabr 2018-ci il tarixli iclasında (Ağdam Rayon İcra Hakimiyyətinin Bakı şəhəri üzrə daimi nümayəndəliyinin rəhbəri Elxan Mahmudovun və "Psixologiya" jurnalının təmsilçisi V.Abduləzimovun şikayəti üzrə, "Kür-Xəzər" Xeyriyyə Cəmiyyəti ictimai birliyinin sədri Akif Kərimovun şikayəti üzrə) "Təzadlar" qəzeti və "təzadlar.az" saytı barədə şikayətlər araşdırılıb, şikayət doğuran materiallarda AJPDQ-nın balans prinsipinin pozulduğu müəyyən edilib. Bənzər xətaların təkrarlandığını nəzərə alaraq, "Təzadlar" qəzeti və "təzadlar.az" saytına MŞ tərəfindən xəbərdarlıq olunub. Tərəflər razılaşıblar ki, yazıda adı keçən və ittiham olunanların fikirlərinin açıqlanması üçün saytda şərait yaradılsın. Amma cənab Mərzili özünün də iştirakı ilə keçirilmiş bu iclaslardan sonra razılaşmaları pozub, şikayətçilərə qəzetdə fikirlərini çatdırmaq imkanı verməkdən yayınıb.

Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının 15 yanvar 2019-cu il tarixdə keçirilmiş iclasında vətəndaş Quliyev Şakir Sabir oğlunun və Azərbaycan Dövlət İqtisad Universitetinin -UNEC-in professor/müəllimlərinin "Təzadlar.az" saytına qarşı şikayətləri araşdırılıb. Həmin müraciətlərdə iddia olunurdu ki, saytda Azərbaycan Dövlət İqtisad Universiteti-UNEC barədə qısa müddət ərzində 255-ə yaxın məqalə yayımlanıb. Məqalələr şər, böhtan xarakterlidir. Həmin 255 məqalədən yalnız 20-yə yaxını MŞ üzvlərinə təqdim edilmişdi.

Komissiya müəyyən edib ki, son vaxtlar "Təzadlar.az" saytı barədə MŞ-yə ünvanlanmış şikayətlər intensivləşib. Şikayət doğuran materiallarda AJPDQ-nın əksər prinsipləri pozulub. Komissiya üzvləri mübahisəli məqamların çoxluğunu, həm iddialarda, həm də verilən cavablarda boşluqların olduğunu, dəqiqləşdirmələrə ehtiyacın yarandığını nəzərə alaraq qərara gəliblər ki, qeyd edilən KİV-in fəaliyyətinin və şikayət doğuran materialların geniş araşdırılması üçün "Təzadlar" qəzeti və onun onlayn versiyası üzrə materiallar MŞ-nin monitorinq qrupuna yönləndirilsin. A.Mərziliyə də tövsiyyə edilib ki, kampaniya xarakterli yazıları bir həftə müddətində dayandırsın, monitorinq qrupunun mövcud məqalələr üzərində araşdırma aparmasına şəriat yaratsın. Baş redaktor bu şərtlə razılaşdığını bildirsə də, həmin günün ertəsi şərtləri pozub, Dövlət İqtisad Universitetinin rəhbərliyi ilə yanaşı, MŞ üzvlərini də tənqid hədəfinə çevirən yazılar yayımlamağa başlayıb. Şura üzvləri ilə "separat danışıq"ında isə etiraf edib ki, həmin məqalələrin sifarişçiləri onların yayımının bir həftəlik dayandırılması ilə razılaşmırlar və bu səbəbdən Şikayətlər üzrə Komissiyanın tövsiyələrini qəbul etməməyə məcburdur. Göründüyü kimi, "Təzadlar" qəzeti üçün "qara siyahı"dan başqa yol qalmır.

# Baş redaktor: "Belələrində heç tula qədər də sədaqət yoxdur"



"Bu gün həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu, siyasi çəkisi durmadan artır. Möhtərəm Prezidentimiz mütəmadi olaraq xarici ölkələrdə rəsmi və işgüzar səfərlərdə olur, eyni zamanda xarici ölkələrin dövlət və hökumət başçılarını respublikamızda qəbul edir, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunur, faydalı əməkdaşlıqlar qurulur və daha da genişləndirilir. Dövlətimizin başçısı xarici səfərlərdə keçirdiyi görüşlər zamanı Azərbaycanın haqlı mövqeyini, həqiqətlərimizi dünya ictimaiyyətinin diqqətinə çatdırır, xalqımızın, dövlətimizin milli maraqlarını müdafiə edir. Məhz bu, Azərbaycanı dünyada güclü, söz sahibi edən əsas amillərdən biridir". Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanın bu uğurlarını gözü götürməyən bəzi daxili və xarici düşmənlər hər fürsətdə öz çirkin niyyətlərini reallaşdırmağa çalışırlar: "Təəssüf ki, milli mənsubiyyəti azərbaycanlı olan belələrinə də rast gəlirik. Xaricdə oturub adını azərbaycanlı qoyan, lakin bu Vətənə layiq olmayan, bu dövlətə ermənidən daha kəskin şəkildə düşmən mövqedə duran belə ünsürlər ermənilərin və ermənipərəst qüvvələrin diktəsi altında hərəkət edirlər. Məqsəd isə birdir: Azərbaycanın nüfuzunu ləkələmək, onu gözdən salmaq, bununla da öz "ağalarının" tapşırıqlarını yerinə yetirmək və qarşılığında "tula payı" almaq. Ancaq iş orasındadır ki, belələrində heç tula qədər də sədaqət yoxdur".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, bugünlərdə Brüsseldə bir neçə xəyanətkarın Azərbaycan Prezidentinin dayandığı otelin qarşısında aksiya keçirmək cəhdi də ölkəmizə qarşı aparılan çirkin siyasətin növbəti təzahürüdür: "Ermənilərin və erməniperəst qüvvələrin əlində sadəcə alət, vasitə olan bu kimi antimilli ünsürlər pul qarşılığında Vətəni, torpağı satmağa hazır olan küçə təfəkkürlü canlılardır. Onlar normal insana məxsus şərəf, ləyaqət, heysiyyat və bu kimi digər anlayışlardan məhrumdurlar. Çünki normal düşünən heç bir insan öz xalqına, dövlətinə bu pisliyi, xəyanəti etməz. Göründüyü kimi, onlar üçün pul Vətəndən, şərəf və ləyaqətdən daha üstündür. Hesab edirəm ki, xalqımız bu cür ünsürlərin qiymətini və cavabını çoxdan verib. Belələrinə qalan isə onun-bunun qabağında quyruq bulayıb, şərəfsiz və ləyaqətsiz ömür sürmək olacaq".

## "ASAN xidmət"ə 29 milyonuncu vətəndaş müraciəti qeydə alınıb



Mayın 14-də "ASAN xidmət"ə 29 milyonuncu vətəndaş müraciəti qeydə alınıb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu müraciət Bərdə regional "ASAN xidmət" mərkəzinə Elcan Həsənli tərəfindən edilib. O, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həyata keçirdiyi xidmətdən yararlanıb. 29 milyonuncu müraciətin sahibi kimi Elcan Həsənli təşəkkürnamə və hədiyyələrlə mükafatlandırılıb.

# "Azərbaycan naminə birləşək!" kampaniyası başlandı

## İngilislər Azərbaycanda istənilən qapını döyə bilərlər



Böyük Britaniya Xarici İşlər Nazirliyinin Azərbaycana səyahətlə bağlı öz ölkəsinin vətəndaşlarına tövsiyəsi günəşli gündə şimşək effekti verdi. Çünki hazırda qətiyyən heç bir arqumentə söykənməyən və Böyük Britaniyanın milli maraqlarına və dövlət siyasətinə uyğun olmayan bu qeyri-ciddi bəyanatın necə ortaya çıxdığı və hansı qüvvənin mənafeyinə xidmət etdiyini, əslində, Londonun xarici siyasətini yürüdənlərin özləri də məntiqlə izah edə bilmirlər.

Azərbaycandan cavab reaksiyaları özünü çox gözlətmədi və dərhal Azərbaycanın Xarici İşlər Nazirliyi rəsmi açıqlama verdi. İctimaiyyətdə də bu məsələ ilə maraqlanan və aidiyyəti olan sosial qurumların münasibəti gözlənildiyi kimi açıq və məntiqli şəkildə ifadə olundu. **Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın** şərhi belə oldu: "UEFA Avropa Liqasının 29 mayda Bakıda keçirilən final oyunu ərəfəsində Böyük Britaniya Xarici İşlər Nazirliyinin Azərbaycana aid




yaydığı səyahət tövsiyələri anlaşılan deyil və təəccüb doğurur. Azərbaycanda təhlükəsizlik və sabitlik tam şəkildə təmin olunub. Azərbaycan çoxsaylı, mötəbər beynəlxalq tədbirlərə, o cümlədən, beynəlxalq miqyaslı idman yarışlarına ev sahibliyi edir. Bu sırada I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, illik əsasda keçirilən "Formula-1" Bakı Qran-Prisi və UEFA Çempionlar Liqası çərçivəsində 2017-ci ildə "Qarabağ"-"Çelsi" futbol oyunu qeyd oluna bilər. Bu idman yarışlarını izləmək məqsədilə, ölkəmizə gələn coxsaylı əcnəbi ölkə vətəndaşları Azərbaycanda ictimai asayişiyin təmin olunması, mövcud olan sabitlik və təhlükəsizlik mühiti bu kimi böyük miqyaslı idman tədbirlərinin təşkilatçılığından məmnun qalmışlar".

**"Səs" Media Qrupun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev** isə bu cür münasibət bildirib: "Azərbaycanın əleyhinə fəaliyyət göstərən müəyyən dairələrin, dəfələrlə olduğu kimi, mötəbər beynəlxalq tədbirlərə ölkəmizin ev sahibliyi edərkən təşkil etdiyi qara piar, yaxud antitəbliğat kampaniyasının təsiri altında verilmiş açıqlama kimi dəyərləndirdi. İstər 2012-ci ildə "Avroviziya" Mahnı Müsabiqəsi, istər 2015-ci il I Avropa İdman Oyunları, istərsə də 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları zamanı, eyni vaxtda "Formula-1" yarışlarının Bakı mərhələsində biz oxşar anti-təbliğat kampaniyasının şahidi olmuşuq. Lakin Azərbaycan dövləti ölkəmizdə ən yüksək standartlara uyğun infrastruktur və ideal mühit yaradaraq, mühüm beynəlxalq tədbirləri ölkəmizdə çox uğurlu şəkildə təşkil etməklə, qara piarçılara əməli işlə cavab verərək, Azərbaycanın beynəlxalq imicinə və cəmiyyətin mədəni, humanitar və sosial-iqtisadi inkişafına yeni-yeni töhfələr verir".



Tanınmış jurnalist Nicat Dağların da bu səpgidə məqaləsi müəyyən zümrənin ictimai fikrinin ifadəsi kimi çox maraqlıdır: "İngiltərə futbolun vətəni hesab olunsa da, bu vaxta qədər yalnız bir dəfə Dünya çempionu olmağı bacarıblar. O da, məhz azərbaycanlı kişinin sayəsində!

1966-cı ildə keçirilmiş Dünya çempionatının final qarşılaşmasında yan xətt hakimi Tofiq Bəhramovun dəqiqliyi və prinsipiallığı sayəsində ingilislərin mübahisəli topu qol kimi qeydə alındı. O vaxtdan 53 il keçib və ingilislər Dünya kubokunu 2-ci dəfə başları üzərinə qaldırmağa müvəffəq ola bilməyiblər. 2006-cı ildə ingilislər Bakıya gəlmişdi. Dünya kubokunun seçmə mərhələsi çərçivəsində Azərbaycan və İngiltərə milliləri qarşılacaqdı. Oyundan əvvəl Tofiq Bəhramovun abidəsinin açılışı oldu. Diqqətçəkən bilirsiniz nə idi? Tədbirə qatılmış ingilis azarkeşlər, üzərində "Sağ ol, cənab Bəhramov!" yazılmış köynəklər geyinmişdilər. O vaxt yadımdadır ki, paytaxtın gecə klubları, əyləncə məkanları ingilis azarkeşləri tərəfindən zəbt olunmuşdu. Onlar qışqırıb-bağırır, alkoqollu içkiləri həddsiz dərəcədə qəbul edib, bir neçə yerdə bir-biriləri ilə davaya da qalxmış olduqları məkanlara böyük məbləğdə ziyan vurmuşdular. Bütün bunlara baxmayaraq, amma birinin də burnunu qanatmadıq. Hansısa azarkeşin cibinə girən olmadı, ümumiyyətlə, ingilis azarkeşlərinin Bakıda olduğu günlər ərzində hər hansı birinə "gözün üstə qaşın var" deyən olmadı. Əminəm ki, bu Avropa Liqasının Bakı finalı da ingilis azarkeşlərinin sayının əvvəlki illlərlə müqayisədə qat-qat çox olması ilə müşahidə olunacaq".

Əlbəttə, Böyük Britaniya Xarici İşlər Nazirliyinin açıqlaması, göründüyü kimi, Azərbaycanda çox mənfi qarşılanmaqla yanaşı, həm də ictimai rəydə məntiqi əsası olmayan, hətta Londonun rəsmi mövqeyindən daha çox müəyyən dairələrin təsiri altında səslənmiş fikir kimi başa düşüldü. Doğrudan da, bir suala məntiqli və arqumentli cavab tapmağa çalışaq. NƏ ÜÇÜN? Niyə Böyük Britaniya Xarici İşlər Nazirliyi öz vətəndaşlarına Azərbaycana səyahəti tövsiyə etmir?

UEFA rəsmiləri bu çempionatın final oyununu planlaşdıranda Bakıdakı mövcud şəraiti, idman və turizm infrastrukturunun ən müasir standartlara uyğun olduğunu və Azərbaycandakı siyasi, kriminal stabilliyi və sabitliyi nəzərə alaraq, belə qərara gəlmişlər. Hələ onu da qeyd etmək lazımdır ki, onda heç bəlli deyildi ki, UEFA çempionatının final oyununda iki ingilis klubunun futbol komandası qarşılaşmalı olacaq. Bəlkə hələ bu suala da şübhə ilə yanaşmağa əsas var. Görəsən, necə olub ki, iki ingilis klubu finala yüksəlib? Məsələ heç bunda da deyil. Müxtəlif parametrlər üzrə təhlil edib müqayisələr aparanda, belə bir nəticə alınır ki, Bakı belə tədbirlər üçün ən yaxşı və ən uyğun şəhərlərdən biridir.

Azərbaycan-ümumxalq səsverməsi ilə qəbul olunmuş konstitutsiya və daim mütərəqqi islahatlar aparılan ali qanunlarla idarə olunan demokratik bir dövlətdir. Gömrük və biznes viza sistemi beynəlxalq normalara uyğunlaşmış elektron idarəçilik forması tətbiq edilən, dünya internet sisteminin bir hissəsidir. Qafqazın füsunkar təbiətini və milli mərdlik, qonaqpərvərlik xüsusiyyətlərini özündə ehtiva edən, kriminogen durumu ən sabit olan ölkədir. Kimin necə görmək və ya kimin necə göstərmək istəyindən və yaxud subyektiv münasibətindən asılı olmayaraq, demokratik idarəçilik, iqtisadi, sosial-mədəni inkişaf yolunda, milli dəyər, milli xüsusiyyət və maraqları qoruyaraq, daim islahat və innovasiyaların tətbiq olunduğu dövlətdir. Öz təfəkkür, müasir mədəniyyəti ilə Avropanın bir hissəsi olan Azərbaycan nümayəndələrinin təkcə "Avroviziya" Mahnı Müsabiqəsində aktiv iştirakları və uğurlu nəticələri:

**Belqrad - 2008-ci ildə 8-ci yer,**
**Moskva - 2009-cu il 3-cü yer,**
**Oslo - 2010-cu il 5-ci yer,**
**Düsseldorf - 2011-ci il 1-ci yer,**
**Bakı - 2012-ci il 4-cü yer,**
**Malmö - 2013-cü il 2-ci yer** və s. tutumları Azərbaycanın Avropa mədəniyyətinin həm bir hissəsi olduğunun, həm də Avropa mədəniyyətinə verdiyi töhfələrin göstəricisidir.

I Avropa Oyunlarının da 12-28 iyun 2015-ci ildə Azərbaycanda keçirilməsi bu ölkənin Avropa idman infrastrukturunun bir hissəsinin təsdiqi ilə yanaşı, Avropa oyunlarında, ölkə olaraq, II yer qazanması idmanın inkişafının göstəricisidir. Hər halda, 2015-ci ildə Azərbaycanda keçirilən yarışda Avropanın 50 ölkəsinin 24-ü olimpiya və 6-sı qeyri-Olimpiya idman növü olmaqla, 30

idman növü üzrə 10000 idmançı 17 gün ərzində mübarizə aparmış və təşkilatçılıq çox yüksək formada qurulmuşdur. Həmçinin, 2017-ci il 12-22 may tarixlərində Bakıda IV İslam Həmrəyliyi Oyunları da çoxmillətli multi-idman turniri olaraq, yüksək təşkilatçılığı ilə diqqəti cəlb edirdi. Sözsüz ki, bu və ya digər beynəlxalq tədbirlərin yüksək təşkilatçılığı, ilk növbədə, bu ölkənin gömrük, viza daşımacılıq və turizm-xidmət infrastrutrunun müasir standartlara uyğunluğunu həm şərtləndirir, həm də təsdiq edir.

Avropanı gəzmək üçün ən ucuz şəhərlərin siyahısı tərtib olunarkən, üçulduzlu

# “Azərbaycan naminə birləşək!” kampaniyası başlandı



otellər də bir nəfərin bir gecəlik qalması, turistik yerlərə giriş, taksi və gündəlik qidalanma xərcləri nəzərə alınmaqla, 20 şəhərin siyahısı təxmin edilmişdir.

Bunlar:

**1. Buxarest, Rumıniya**
**2. Sofiya, Bolqarıstan**
**3. Kiyev, Ukrayna**
**4. Çeski Krumlov, Çexiya**
**5. Sarayevo, Bosniya və Herseqovina**
**6. Sankt-Peterburq, Rusiya**
**7. Budapeşt, Macarıstan**
**8. Krakov, Polşa**
**9. Belqrad, Serbiya**
**10. Split, Xorvatiya**
**11. Zaqreb, Xorvatiya**
**12. Vilnüs, Litva**
**13. Bratislava, Slovakiya**
**14. Santorini adası, Yunanıstan**
**15. Riqa, Latviya**
**16. Tenerife, İspaniya**
**17. Praqa, Çexiya**
**18. İstanbul,Turkiyə**
**19. Varşava, Polşa**
**20. Moskva, Rusiya,** uyğun olaraq, 44 - 77 ABŞ dollar arası dəyişir. Göründüyü kimi, bu şəhərlərin arasında Avropanın bir çox dövlətlərinin Böyük Britaniya, Fransa, Almaniya, Avstriya, İtaliya, İsveç və s. heç bir şəhərlərinin adı yoxdur. Bakıda isə şəhərin mərkəzində və yaxud gözəl füsunkar təbiəti olan əyalətlərdə üçulduzlu otellərdə bir nəfərin gecələməsi, taksi, qidalanma və turistik yerlərə giriş üçün bir gündə orta hesabla cəmisi - otel - 40 AZN, taksi - 15 AZN, yemək - 10 AZN, giriş - 5 AZN və bütün bunların cəmi 70 AZN və ya 41 ABŞ dolları təşkil edir. Əgər kimsə daha yüksək komfort istəsə, sözsüz ki, Azərbaycanda arzuladığı ən yüksək komfortu da əldə edə bilər.

Azərbaycanda gündüzdən-axşama, gecədən-səhərə qədər millətindən, dilindən və dinindən asılı olmayaraq, hamı sərbəst istədiyi yerdə gəzə və istirahət edə bilər və heç kimin həyatı nə ölüm təhlükəsi ilə, nə də xırda xuliqanlıqla təhdid olunmur. Avropanın və Amerikanın bir çox şəhərlərində isə, bunu demək olmaz. Hətta rəsmi xəbərdarlıq olunan yerlər mövcuddur ki, orada müəyyən saatlarda gəzmək tövsiyyə olunmur.

Böyük Britaniya Londonda 23 mart 2017-ci ildə Westminsterdə hücumçunun idarə etdiyi avtomobili səki ilə yanaşı sürməsi və bir polisi bıçaqlaması nəticəsində, 5 nəfər həlak olub, 40 nəfər xəsarət alıb. Hücumçu polis tərəfindən öldürülüb. Baş nazir Theresa May hücumu “xəstə və əxlaqsız” adlandırıb və bildirib ki, hücum söz azadlığı, demokratiya və azadlıq dəyərlərinə zərbə endirib. Baş nazir əlavə edib: “Bu hücumun baş verdiyi yer təsadüfi deyil”.

“Mançestr Arena” stadionunda 22 may 2017-ci il tarixdə amerikalı müğənninin Ariana Grandenin çıxışından sonra partlayış baş verib. Hadisə nəticəsində 22 nəfər, o cümlədən, 12 uşaq həlak olub, 120 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb və 9 nəfər itkin düşüb.

20 avqust 2016-cı ildə Fransanın Nitsa şəhəri, 20 dekabr 2016-cı ildə Almaniyanın Berlin şəhəri və s. baş vermiş qanlı olaylar Avropa şəhərlərinin heç də təhlükəsiz olmadığını göstərir və bu şəhərlərdə yaşayan insanların evindən çıxıb işə gedərkən, küçədə hər hansı silahlı hücuma məruz qalmayacaqlarına heç kim zəmanət verə bilmir.

UEFA Avropa Liqasının son final oyunları 2012/2013-cü illərdə Hollandiya Amsterdam, 2013/2014-cü illər İtaliya Yuventus, 2014/2015-ci illər Varşava, 2015/2016-cı illər İsveçrə Bazel, 2016/2017-ci illər İsveç Stokholm, 2017/2018-ci illər Fransa Lion, 2018/2019-cu illər Azərbaycan Bakı Olimpiya stadionnda keçiriləcək, final oyununda iki ingilis komandası qarşılacaq. Bu oyunun vaxtını və yerini isə UEFA rəsmiləri və püşqatma komissiyası təyin edəndə, hələ finala kimlərin yüksələcəyi bəlli deyildi. Deməli, UEFA Avropa Liqasının final oyununun Azərbaycanda - Bakı Olimpiya stadionunda keçirilməsi üçün, nəinki heç bir problem yoxdur, əksinə, həm idmançılar, həm də azarkeşlər üçün ən uyğun seçimlərdən biridir.

Bəs Böyük Britaniya Xarici İşlər Nazirliyinin “tövsiyəsini” necə izah etmək olar? Əlbəttə, tələskənliyə yol verilmiş, hansısa anti-təbliğat, yaxud qara piar kampaniyasının təsiri altında səsləndirilmiş bəyanat kimi. Azərbaycan ictimaiyyətinin və cəmiyyətinin sosial qruplarının nümayəndələri isə bu açıqlamanı çox məntiqsiz və əsassız hesab edərək, bu barədə münasibətlərini ifadə edib, fikirlər səsləndirmişlər. İctimai fikri ümumiləşdirərək, “Azərbaycan naminə birləşək!” şüarı ilə xoşməramlı təbliğat kampaniyasının təşkili barədə təşəbbüs irəli sürürük. Təklif edirik ki, bu kampaniyada iştirak edən hər bir azərbaycanlı, hər bir vətəndaş və ya KİV nümayəndələri xarici partnyorlarına, xaricdə mövcud olan tanıdığı hər hansı əlaqə subyektinə, rəsmi və qeyri-rəsmi elektron ünvana, ictimai qurumlar, ölkəmizdə olan bütün diplomatik və digər xarici nümayəndəliklərə və onların mərkəzi ofislərinə müraciət etsin, “Azərbaycan naminə birləşək!” şüarı ilə 10 gün ərzində Azərbaycanın turizm potensialı, mədəni və sosial həyatı ilə bağlı materiallar göndərərək, vətəndaş mövqeyi ortaya qoyaq.






Azərbaycan haqqında istənilən bir fikrə fakt və arqumentlə ölkəmizin turizm potensialı barədə məlumat verərək, xarici dostlarımızı və dost olmayanları Azərbaycana səyahətə dəvət edirik. Böyük Britaniya vətəndaşlarını və dünyanın bütün səyahət həvəskarlarını Bakıya və Azərbaycanın digər əyalətlərinə dəvət edirik. Bunun üçün yüksək səviyyədə qurulmuş infrastruktur mövcuddur, lakin Azərbaycana səyahət etmək istəyən istənilən avropalını əmin edirik ki, “Əgər bizim vətənimizdə istənilən bir qapını döyüb qonaq olduğunuzu desəniz, Sizi hər bir ev sahibi evinin ən yaxşı otağında qonaq edərək, ən ləziz yeməklərini süfrəyə düzəcək”.

***“Region” Analitik İnformasiya Mərkəzi***
***“Səs” qəzetinin sifarişi ilə***



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Zelenskini kim seçdi: Ukrayna, yoxsa..?

***Hərdən mənə elə gəlir ki, artıq dünya siyasətində əsl aktyorlaşma və səhnə quruluşu meydana gəlir. Sanki dünya siyasəti, siyasətin mahiyyətində olduğu kimi, rol oynama meydanına çevrilir. Özü də açıq-dan-açığa. Əvvəllər siyasətin çirkin bir iş olduğunu, burda yer alan insanların, yəni siyasətçilərin də əsl aktyor olduqlarını, öz maraqları üçün insanları qurban verdiklərini deyirdilər. İndi bunu deməyə ehtiyac belə qalmayıb. Çünki artıq siyasi prosesləri peşəkar aktyorlar idarə etməyə başlayıblar. Daha doğrusu, iş başına aktyorlar gəliblər. Sənətli-sübutlu aktyorlar!***

Ölkəni idarə edib-etməyəcəkləri də başqa məsələdir. Son 10 il ərzində dünya siyasətindəki əsas siyasi fiqurların aktyor və şoumenlər arasından seçilməsi də təəccüb və şübhələri ikiqat artırır. Sanki dünya siyasətində "gözəgörünməz əl" bu işləri aparır. Belə çıxır ki, insanlar onları idarə etmək üçün aktyorlar seçirlər. Elə Ukraynada da belə oldu. "Şokolad kralı" olan yəhudi Poroşenko getdi, əvəzində, şoumen yəhidi Vladimir Zelenski gəldi iş başına. Özü də inciksiz-filansız. Maraqlı və maraqlı olduğu qədər də müəmmalı keçid oldu.

Bəs necə oldu ki, ukraynalılar az qala 30-a yaxınlaşan namizədlərin içindən iki nəfəri seçdilər ikinci tura? Sonra da "şokolad kralı"ndan imtina edib, şoumen oğlana səs verdilər. Bu faktın özü, daha betər təəccüblü məsələdir. Bircə gün də siyasətdə və dövlət işində iştirakı olmayan birisinin o boyda Ukraynada da əzici səs qazanması, Rusiya ilə düşmən vəziyyətində olan bir xalqın bu gərgin və olduqca həssas zamanda peşəkar siyasətçi əvəzinə, şoumen birisinə qucaq açması dünya siyasətinin gizlinliklərindən də xəbər verir. Korrupsiya və rüşvətin, oliqarx cinayətkar elitanın at çapdığı, ərazisinin əsas hissələri zəbt olunmuş bir ölkə üçün şoumenin prezident seçilməsi, sanki tarixin istehzasıdır. Oturuşmuş korrupsioner oliqarxiyanın bu şoumen cavan oğlandan çəkinməsi qədər gülünc və istehzalı heç nə ola bilməz. Nəzərə alanda ki, bu təhlükəli oliqarxiyanın başında Petro Poroşenkonun özü dayanıb, o zaman ukraynalılar üçün oynanılan bu acınacaqlı tamaşadan təsirlənməmək olmur.

Bəs P.Poroşenko Ukrayna üçün nə ilə yadda qaldı? Üzüyola Yanukoviçi Leninsayağı inqilabla yola salan ukraynalılar, P.Poroşenkonun hakimiyyəti dövründə rusların qəzəbinə gələrək, Donetsk və Luqansk kimi strateji şəhərləri, ən dəhşətlisi isə, Soçi kimi tarixi kurort diyarını əldən verdilər. P.Poroşenko hakimiyyəti dövründə özünü qatı Rusiyanın və Putinin düşməni kimi göstərsə də, iflas və böhran qapısında növbə gözləyən Ukrayna üçün heç nə edə bilmədi. Ölkə iqtisadiyyatını və güzəranı düzəltmək bir yana, qədim slavyan torpağını əsl bataqlığa çevirdi. İdeoloji olaraq ukraynalıların "qarnını vədlər və Putinə nifrət saçan ifadələrlə" doydursa da, ukraynalılar çörək və ərzaq üzünə həsrət qaldılar. İndi Ukraynada qarın doyurmaq asan məsələ deyil. İqtisadi böhran, milli valyutanın yerlərdə sürünməsi və ən əsası da gələcəyə olan inamsızlıq. Bu yekəlikdə slavyan dövləti Taras Şevçenkonun şeirlərindəki acı misraları xatırladır.

Beləliklə, Ukraynada yəhudi əsilli Popoşenko ilə onun həmyerlisi Zelenskinin hakimiyyət alış-verişi, ya da belə deyək, hakimiyyət təhvil-təslimi baş tutub. Cavan şoumeni kim seçib bəs? 73 faizli əzici üstünlüyü ona kim verib: Ukrayna yoxsa..? Bunu da zaman göstərəcək. Hər şeyi vaxtında göstərdiyi kimi. Amma Ukraynanın ümidi bu cavan şoumenə qalıbsa, onda məsələ qəlizdir. Düzdür, bəri başdan mənfi misraları ardarda düzmək fikrim yoxdur. Bəlkə də elə bu cavan şoumen Ukrayna üçün əsl qəhrəmana çevriləcək. Hər saniyənin və "dərin dövlətin" Zelenskiyə biçilmiş rolun öz hökmü var. Amma V.Putinin indiki vaxtında Zelenskinin Kiyevdə qəhrəmanlıq arzusu qəliz məsələdir...

# Qozbeli qəbir düzəldər

## *Nikol Paşinyan necə "yalançı Nikol" oldu*

***Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiasının, davam edən işğal rejiminin düşmən ölkəyə "bəxş elədiyi" ən pis sürpriz onun bütün regional iqtisadi və energetik, kommunikasiya layihələrindən kənarda - blokada rejimində saxlanmasıdır. Bunun da ən birinci səbəbi ölkəyə rəhbərlik edənlərin işğalçılıq siyasəti aparmasıdır. Bu günə kimi Ermənistan özünün sovetdənqalma rüşeym iqtisadiyyatı ilə, on illərdir ki, dünya iqtisadi sisteminə inteqrasiya oluna bilməyən işğalçı ölkə, nəticədə, tullantı ölkəyə çevrilib.***

Bu prosesin daha sürətlə baş verməsinin səbəbi isə, sərsəm və siyasi savaddan uzaq olan Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən daha çətin anlar yaşandı. Yeni hakimiyyət də əvvəlkilər kimi reallığı ört-basdır etməklə, hər hansı müsbət bir nəticə əldə etmək xülyası ilə fəaliyyət göstərir. Bu, həm daxili sosial-iqtisadi vəziyyətin ağır olaraq qalmasında, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində özünü göstərir. Ermənistan rəhbərliyi ənənəvi absurd mövqeyi ilə özünün durumunu daha da ağırlaşdırır, eyni zamanda, münaqişənin danışıqlar yolu ilə həllini mürəkkəbləşdirməkdə davam edir. Buna beynəlxalq ictimaiyyətin reaksiyası getdikcə artır. Bir sıra ekspertlər Ermənistanın işğal etdiyi Azərbaycan ərazisini tərk etməsindən başqa yolunun olmadığını vurğulayırlar. Rusiyalı ekspert Aleksandr Duqin də Ermənistanın öncə beş rayonu boşaltmasının zəruri olduğunu vurğulayıb. Bundan sonra nizamlama prosesinin növbəti mərhələlərinə keçmək olar. Digər ekspertlərin də fikirlərini xatırlatmaq olar. Onların hamısının bir ortaq fikri var: Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından qoşunlarını çəkməlidir. Burada reallıq aydın görünür. Rəsmi İrəvan nə qədər söz hoqqabazlığı etsə də, ondan indi hər kəs zəbt etdiyi ərazilərdən silahlı quldur dəstələrini çıxarmağı tələb edir. Bunun hansı formatda ediləcəyi məsələsi, artıq danışıqların predmetidir. Hər bir halda, aydındır ki, əsas şərt Ermənistanın təcavüzkar olaraq Azərbaycanın işğal etdiyi ərazilərindən çıxmasından ibarətdir.

Buradan sadə bir məntiqi nəticə alınır: Ermənistanın problemin həlli ilə bağlı təsəvvürləri ilə reallıq arasında dərin bir ziddiyyət mövcuddur. Bunu nə ilə izah edirsən et, heç nə dəyişmir. İstər mücərrəd surətdə erməni xalqının iradəsindən bəhs et, istərsə də Paşinyan hakimiyyətinin siyasi iradəsindən dəm vur və ya başqa tarixi "faktlar" gətir, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

Baş verənlər, onu deməyə əsas verir ki, Nikol Paşinyan saxta və köhnəlmiş fikirləri təkrarlamaqla məşğuldur. Belə bir müqayisə də yerinə düşər ki, Nikol Paşinyanla Qorbaçovun Azərbaycan üçün elə bir fəqri yoxdur, çünki hər ikisi işğalçı təfəkkürünə malikdir. Ona görə də, Nikol hansı donu geyirsə-geyinsin, yamağı görünür. Çünki yalan ayaq tutur, ancaq yermir. Yerisə belə, uzağa gedə bilmir. Onun geydiyi



Azərbaycanla normal münasibətlər yaratmadan, Ermənistanın bir dövlət olaraq mövcudluğunu davam etdirməsi mümkün deyil. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar ölkəmizin beynəlxalq miqyasda da mövqeyini əhəmiyyətli dərəcədə gücləndirən faktorlardan biri



papışları bünövrədən cırıqdır.

### Quldur Paşinyanın quldur siyasəti Ermənistanı uçuruma aparır

Göründüyü kimi, Ermənistanda baş verən ictimai-siyasi gərginlik, bitib-tükənməyən problemlərdən, həm də Paşinyan hakimiyyətinin özbaşınalıqlarından cana doymuş əhali, artıq ayağa qalxmaqdadır. Məsələn, Armavir vilayətinin Zartonk kəndinin sakinləri pay torpaqlarının qeyri-qanuni yolla əllərindən alınmasına etiraz ediblər. Erməni mətbuatının yazdığına görə, bu aksiya zamanı insident də baş verib, nəticədə 7 nəfər yaralanıb. Srağagün isə, İrəvanın mərkəzində baş vermiş hadisə zamanı 3 nəfər güllə yarası alıb. Onlardan biri həyatını itirib. Ölən şəxsin "Ararat-2" futbol komandasının qapıçısı olduğu bildirilir.

Etirazçılar bildirirlər ki, Nikol Paşinyan eşitsin və agah olsun ki, erməni xalqı onun hakimiyyətə yalan vədlərlə gəldiyini bilir və aksiyalar davam edəcək. Hər şeyin bir sonu olduğu kimi, Paşinyanın da oyunbazlığının sonunun zamanı gəlir: Necə deyərlər, Paşinyan min-bir hiylə ilə hördüyü corabın toruna özü düşüb. Ölkə fəlakət durumundadır. Repressiv şərait, ağır sosial-iqtisadi durum üzündən ölkəni tərk edənlərin sayı sürətlə artır.

Bir sözlə, Paşinyanın hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar ölkədə heç bir inkişaf və islahatlar getmədiyini, qalan tənəzzül, iflas, korrupsiya və bürokratik əngəllər bu gün də davam etməkdədir.

### Ermənistanın çıxış yolu - işğala son qoymaqdır

Bütün bunlar onu sübut edir ki, kimi çıxış edir: "Bütün bunlara paralel olaraq, uğurlu xarici siyasət Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini ölkəmizə yönəldib. Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir".

Məsələyə münasibət bildirən politoloq Fikrət Sadıqovun sözlərinə görə, Ermənistanın baş nazirinin məlum açıqlaması Paşinyanla Qarabağdakı separatçı qurum arasında uçurumun dərinləşməsindən xəbər verir: "Bir ara Paşinyan öz reytinqini qaldırmaq üçün istədi ki, separatçıları danışıqlara qoşsun. Ancaq bu, alınmadı. Çünki Azərbaycan buna imkan vermədi, beynəlxalq qurumlar bunu dəstəkləmədilər. Görünən odur ki, tərəflər arasında uçurum daha da böyüyür. Reallıq ondan ibarətdir ki, Paşinyanla Dağlıq Qarabağ separatçıları arasında qarşıdurma açıq müstəviyə keçmək üzrədir. Qarabağ separatçıları, bir tərəfdən, başa düşürlər ki, onlar İrəvandan asılıdırlar. Çünki onlar elə bir vəziyyətdədirlər ki, Ermənistanın yardımı olmasa, duruş gətirə bilməzlər. Ancaq başqa bir tərəfdən, ziddiyyətlər o həddə çatıb ki, separatçılar Paşinyana qarşı nifrətlərini gizlədə bilmirlər. Çünki gah bəyanatlar verirlər, gah da Koçaryanın həbsdən azad olunması ilə bağlı çağırışlar edirlər. Hesab edirəm ki, bütün bunlar yaşanan qarşıdurmanın etirafıdır. Ən başlıcası isə, qarşıdurmalar artıq açıq müstəviyə keçir. Tərəflər arasında siyasi qarşıdurmanın bundan sonra daha da davam etdiriləcəyi gözlənir. Bütün bunlar Ermənistandakı siyasi mənzərəyə də öz təsirini göstərəcək. Ona görə də qarşıdurma artacaq. Son vaxtlar Paşinyana qarşı yönəldilmiş tənqidlərin artması bütün bunların təzahürüdür".

**A.SƏMƏDOVA**

# Ailənin sağlamlığı cəmiyyətin sağlamlığıdır

***Bu gün qloballaşma və modernləşmə şəraitində ölkəmizdə, bütün sahələrdə olduğu kimi, ailə məsələlərinə də böyük diqqət yetirilir. Cəmiyyətimizdə hər zaman müqəddəs sayılan, milli-əxlaqi dəyərlər üzərində qurulan, fərqliliyi və möhkəm təməli ilə seçilən Azərbaycan ailəsinin rifah halının yaxşılaşdırılması, ailə ənənələrinin qorunub-saxlanılması və gələcək nəsillərə ötürülməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər reallaşır.***



Məlumdur ki, 15 may Birləşmiş Millətlər Təşkilatının qərarı ilə bütün dünyada Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Beynəlxalq Ailə Günü BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq, 1994-cü ildən qeyd olunur. Azərbaycan da 2008-ci ildən bu ənənəyə qoşulub və bu gün ölkəmizdə qeyd olunur. Bu, bir faktdır ki, Azərbaycanda dövlət ailə siyasətinin formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər bu dəyərlərin qorunmasını daim diqqətdə saxlayır və ailə dəyərlərini xalqımızın ən böyük sərvəti kimi qiymətləndirdi. Ümummilli Lider Heydər Əliyev deyirdi: "Ailə dəyərləri hər zaman xalqımızın milli düşüncəsində ən yüksək yer tutub. Buna görə də, uzaq keçmişdən ölkəmizdə ailənin qurulmasına mühüm hadisə kimi yanaşılıb, onun təməlinin möhkəm olmasına çalışılıb".

Ulu Öndər Heydər Əliyev cəmiyyətdə qadınların rolunun artırılması, qadınlarla kişilər arasında bərabərliyin təmin edilməsi, qadın, ailə problemlərinin həlli istiqamətində də böyük işlərə imza atıb. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq, Ümummilli Lider tərəfindən ailə dəyərlərinin də daxil olduğu milli dəyərlərimizin qorunub-yaşadılması diqqət mərkəzində saxlanılıb. Müstəqilliyimizin bərpasından sonra isə, ölkəmizdə ailə problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilib və müvafiq qanunvericilik bazası yaradılıb. 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Ailə Məcəlləsi ailə münasibətlərinin tənzimlənməsini özündə əks etdirən əsas hüquqi sənəddir. Ailə Məcəlləsində ailənin möhkəmləndirilməsi zərurəti, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulması, ailənin işlərinə kənar şəxslərin müdaxiləsinin yolverilməzliyi, ailə üzvlərinin ailə qarşısında məsuliyyəti və onların hüquqlarının maneəsiz həyata keçirilməsi əksini tapıb. Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə 1998-ci ildə Azərbaycanda "Qadın Problemləri üzrə Dövlət Komitəsi"nin yaradılması bu istiqamətdə daha bir addım oldu.

**"ÖLKƏMİZİN İNKİŞAFI, MÜSTƏQİLLİYİMİZİN DAHA DA MÖHKƏMLƏNDİRİLMƏSİ ÜÇÜN VƏ MİLLİ DƏYƏRLƏRİN TAM ŞƏKİLDƏ BƏRQƏRAR EDİLMƏSİ ÜÇÜN AİLƏ DƏYƏRLƏRİ DAİM YÜKSƏK OLMALIDIR"**

Ulu Öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərin qorunmasına böyük diqqət və qayğı göstərir. Prezident İlham Əliyev müasir Azərbaycanın həyatında ailə dəyərlərinin önəmini yüksək qiymətləndirərək deyir:"Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır".

Dövlət ailə siyasəti Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, bir sıra dövlət proqramlarında özünün uğurlu inkişafını tapmışdır. Bu sahəyə böyük həssaslıqla yanaşan Prezident İlham Əliyev 2006-cı il fevralın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Sərəncam imzaladı. Hazırda komitə dövlətin ailə siyasətini həyata keçirən bir qurum olaraq, mövcud problemlərin üzərində işləyir və onların həlli istiqamətində mühüm tədbirlər həyata keçirir.

Xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial problemlərinin həlli, müharibə əlili və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, müvafiq kateqoriyalı məhdud fiziki imkanlı şəxslərin minik avtomobilləri ilə təmin edilməsi, habelə, ailənin əmək qabiliyyətli hər bir üzvünün məşğulluq imkanlarının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Gənc ailələrin ipoteka yolu ilə mənzillə təmin olunması üçün də əlverişli şərait yaradılıb. Ailələrin sosial rifahının yaxşılaşdırılması üçün müavinətlər və ünvanlı sosial yardımlar təyin edilir. Bu gün cəmiyyətimiz öz layiqli, sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal və güclü ailələrin formalaşması üçün çalışır.

Heç şübhəsiz ki, Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən biri hesab olunur. Milli-mənəvi dəyərlər, məhz ailədə qorunub-saxlanaraq nəsildən-nəslə ötürülür. Ailə sağlam olmazsa, cəmiyyətin sağlam olmasından danışmaq mümkün deyil. Bunun üçün isə xalqımızın ailə dəyərlərinin yaşadılması, həmçinin, milli dəyərlərin gənc nəsillərə aşılanması və ailə üzvlərinin reproduktiv sağlamlığının qorunması vacibdir.

**ZÜMRÜD**

## Efraim Sne: "İsrail Azərbaycanın düşməninə bir güllə belə verməyəcək"



"Əgər Ermənistan İsraillə münasibətləri yaxşılaşdırmaq istəyirsə, hesab edirəm ki, bundan imtina etməyəcəyik. Ancaq həmişə yadda saxlamaq lazımdır, İsrail heç vaxt Azərbaycanın düşmənlərinə bir güllə belə kömək etməyəcək. Unutmayın, bir güllə". SİA-nın İsrailin stmegi.com saytına istinadən verdiyi məlumata görə, bu sözləri İsrailin müdafiə nazirinin keçmiş müavini Efraim Sne deyib. Onun sözlərinə görə, İsrail Ermənistanı Azərbaycana qarşı istifadə edə biləcək heç nə ilə təmin edə bilməz: "Xeyr, yox və yox. Bu bizim mövqeyimizdir. Əminəm ki, hökumətimizdə bunu başa düşməyən və bilməyən kimsə yoxdur, bunun üçün kifayət qədər axmaq olmalısan. İsrail, hətta bir milliqram da Azərbaycanın düşməninə kömək etmir, heç bir şəkildə. Biz müttəfiqik, biz qardaşıq".

İsrailin müdafiə nazirinin müavini İsrailin Azərbaycana hansı müasir silahları təklif edə biləcəyi ilə bağlı fikirlərə toxunaraq bildirib ki, İsrailin belə məsələləri açıq şəkildə müzakirə etməsi axmaqlıq olardı: "Mən yalnız ikitərəfli münasibətlərdən danışa bilərəm, amma silahlarla bağlı bir söz deyə bilmərəm, bü gizli məsələdir. İkitərəfli münasibətləri yaxşı qiymətləndirirəm. Ancaq daha yaxşı olması gərəkdir. Mədəniyyət və elm sahələrində, müdafiə sahəsi ilə məhdudlaşmamaqla dostluq və əməkdaşlığı genişləndirməliyik. Amma mədəniyyət, elm, akademik araşdırma sahəsində universitet səviyyəsində əlaqələrimizin inkişaf etdirilməsi lazımdır".

## Əlilliyin təyin edilməsi meyarları ilə qanun layihəsi yaxın günlərdə Milli Məclisə təqdim ediləcək



Azərbaycanda mövcud I, II və III qruplar üzrə əlillik meyarları beynəlxalq təcrübəyə uyğun gəlmir. Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib. Nazir bildirib ki, əlilliyin təyin edilməsi meyarları beynəlxalq təcrübəyə uyğunlaşdırılacaq:

"Yeni meyarlar 1000-dən artıq xəstəliyi əhatə edir. Xəstəliyin 6-7 kriteriya üzrə təsir faizi müəyyən edilməklə, xəstəliyin həyata təsir faizi ölçüləcək və əlillik dərəcəsi müəyyən olunacaq". S.Babayevin sözlərinə görə, bu kriteriyalar Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin mütəxəssisləri tərəfindən hazırlanıb. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən isə ekspertiza edilib. Nazir qeyd edib ki, yaxın günlərdə qanunvericilik paketi Milli Məclisə təqdim ediləcək.

## Rusiyalı nazir: Azərbaycan Xəzər dənizi vasitəsilə tranzit potensialını inkişaf etdirir



Azərbaycan və Gürcüstan Xəzər və Qara dəniz vasitəsilə tranzit potensiallarını fəal inkişaf etdirir, kommunikasiya axınını yaxşılaşdırır. Bunu Rusiyanın Şimali Qafqaz işləri üzrə nazir Sergey Çebotaryov deyib. Nazir bildirib ki, Rusiyanın bu regiondakı proseslərin tam hüquqlu üzvü olması üçün çalışmaq lazımdır. Onun sözlərinə görə, belə bir fikir var ki, Rusiyanın Xəzər və Qara dənizdəki limanları yalnız 20-25 faiz işləyir, ona görə də onları inkişaf etdirməyin mənası yoxdur: "Amma bu, belə deyil. Azərbaycan və Gürcüstanın limanları işləyir, kifayət qədər yüklənib. Gürcüstanda bir sahədə iki liman - Poti və Batumi limanları işləyir, üçüncü, Anakliya limanı tikilir. Ona görə də biz bu prosesdən kənarda qalmamalıyıq. Rusiyanın Xəzər və Qara dənizdə limanlarının inkişafı dünya bazarlarına çıxış üçün yeni imkanlar yaradacaq".

## İlk Azərbaycan Gənclər İnternet İdarəçilik Forumu təşkil olunacaq

Mayın 31-dən iyunun 3-dək ölkəmizdə ilk Azərbaycan Gənclər İnternet İdarəçilik Forumu keçiriləcək. Bu barədə mayın 14-də keçirilən mətbuat konfransında Yüksək Texnologiyalar Parkının direktoru Tural Kərimli deyib. Onun sözlərinə görə, forum Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Gənclər Fondu və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) təşkilatçılığı ilə "İnnovasiya Festivalı" çərçivəsində baş tutacaq. Məqsəd Azərbaycan və region ölkələrindən olan gəncləri bir araya toplayaraq rəqəmli sahə üzrə inkişaf tendensiyalarının müzakirə və şərh edilməsidir. Üçgünlük foruma müxtəlif ölkələrdən, əsasən 17-29 yaşarası gənclər qatılacaq.




## Problemli kreditlərin həlli ilə bağlı kompensasiya ödənişlərinin 84 faizi icra edilib



Problemli kreditlərin həlli ilə bağlı kompensasiya ödənişlərinin 84 faizi icra olunub. Bu barədə AZƏRTAC-a Maliyyə Bazarlarına Nəzarət Palatasından bildirilib. Qeyd edilib ki, "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli Fərmanının icrası çərçivəsində ümumilikdə 602 min vətəndaşa kompensasiyanın ödənilməsi nəzərdə tutulub. Mayın 13-dək 506 min vətəndaşımıza ödənişlər təmin edilib ki, bu da planın 84 faizinin icra olunduğunu göstərir. Kompensasiya ödənişləri 243 min nəfərin ödəniş müddəti keçmiş kreditlərinin azaldılmasına yönəlib, 263 min nəfərə isə nağd və ya plastik kart formasında təqdim olunub.

Eyni zamanda, Apellyasiya Komissiyasına edilmiş müraciətlərə araşdırmaların nəticələrinə müvafiq olaraq cavabların verilməsi prosesinə başlanılıb. Bundan sonra vətəndaşlar Apellyasiya Komissiyasına müraciət üçün yaradılmış xüsusi portalda özləri üçün yaratdığı şəxsi kabinetlərindən izləyə bilərlər. Hər bir vətəndaşın müraciəti 30 iş günü müddətində cavablandırılır.

# Emin Milli nəyə görə Əli Kərimlinin düşməninə çevrildi?

*"Meydan" TV-nin sabiq rəhbəri AXCP sədrinin təlimatı ilə söyüş hədəfində*

***"Meydan" TV-nin istefa vermiş rəhbəri Emin Millinin, dağıdıcı müxalifəti dağıdıcılıq əməllərindən əl çəkərək, normal siyasi mühitə uyğunlaşmaq çağırışları qarşı tərəfin kəskin qıcıqlanmasına səbəb olub. Hələ bir müddət öncədən, xüsusilə, ölkədə dinamik islahatlara start verilərkən, iqtidarın bu siyasətinə dəstək verdiyini bəyan edən E.Milli dərhal AXCP sədri Əli Kərimlinin təlimatı əsasında onun trol dəstəsinin hücumlarına məruz qalmışdı. Söyüşlər və həqarətlər səngiməmiş, onun növbəti çağırışı təhqir kampaniyasını yenidən gündəmə çıxardı. Ə.Kərimlinin söyüş şəbəkəsinin belə məsələlərdə dərhal ortaya çıxaraq, sosial şəbəkələrdə söyüş kampaniyalarına başlaması arxasında dayanan amilin qarşı tərəfləri, məhz bu vasitə ilə susdurulması fəndi istədiyi nəticəni verməsə də, AXCP sədri hələ də həmin fəndin ona səmərə verəcəyini düşünür.***



## Əli Kərimlinin aftafadaşıyan ləqəbli köməkçisi hücumlara start verib

Bu arada, Ə.Kərimlinin aftafadaşıyanı kimi tanınan köməkçisi, daha dəqiq desək, trol qrupuna rəhbərlik edən İlham Hüseyn E.Millinin iqtidarın islahatlar siyasətinə dəstəyinə qarşı status paylaşıb və yazıb ki, o, bu vasitə ilə iqtidarın hakimiyyətdə qalmasının tərəfdarı olduğunu sübuta yetirib. İ.Hüseyn E.Millinin daha öncələr hakimiyyətə qarşı qrantlar alıb siyasət yürütdüyünü iddia edib və onu dönük adlandırıb. "...Görünən budur ki, milli oğlanın da tələsən yeri yoxdur. Görünür, milli oğlan özü üçün yeni "həyat modeli" düzəltmək istəyir" deyə yazan AXCP sədrinin aftafadaşıyan ləqəbli köməkçisi, nəticədə, digər kərimovçulara da yol açıb.

## Şahvələd Çobanoğlu və Rəşid Hacılı da oyunun içində...

Misal üçün, AXCP sədrinin əsas ruporlarından sayılan Şahvələd Çobanoğlu, bunun ardınca yazıb ki, E.Milli iqtidarın siyasətini dəstəkləməklə, xalqa zərbə vurub və s. Maraqlıdır ki, hələ də öz çirkin siyasətlərinə xalqın dəstək verdiyinə inanan bu ünsürlər, heç bir haqları olmadan, Azərbaycan xalqının adından danışmağa davam edirlər. Bu baxımdan, Ş.Çobanoğlu: "Emin Millinin son davranışları Azərbaycan xalqına arxadan zərbədir" deməklə, guya onu xalq düşməni elan edib. Halbuki Ə.Kərimlinin özü dəfələrlə bildirib ki, onunla olmayanlar düşmənləridir. Onda belə çıxır ki, AXCP sədrinin düşməni Azərbaycan xalqıdır. Belə olan halda, onu dəstəkləyən bir neçə yüz, yaxud bir neçə min nəferi isə, bürövlükdə, "xalq" adlandırmaq olmaz. Onlar, sadəcə, Ə.Kərimlinin toruna düşmüş siyasi bədbəxtlər yığnağıdırlar. Əlbəttə ki, Ş.Çobanoğlu və sairləri də daxil olmaqla.

Elə AXCP sədrinin xaricdəki şəbəkəsinin təmsilçisi Rəşid Hacılı da həmin yığnağın tərkib hissəsidir. Daim hakimiyyəti söz azadlığının qarşısını almaqda ittiham edən R.Hacılı da qollarını çırmayıb, E.Millinin guya iqtidar cəbhəsinə keçdiyini iddia edib. Halbuki E.Milli bu barədə bir kəlmə də olsun fikir bildirməyib.

## Hakimiyyətə dəstək verənlər Əli Kərimlinin düşmənləri sırasında yer alırlar

Sonda ən maraqlı məqamı xatırlatmağın tam zamanıdır. Çünki elə də uzaq olmayan zamanlarda, lap dəqiq desək, iki-üç ay öncə, yuxarıda sadalanan şəxslər və digər trollar E.Millini az qala "əsrin qəhrəmanı" obrazında təqdim edirdilər. İndi isə, bu adam dönüb-olub satqın və xəyanətkar. Burada isə, təəccüblü heç nə yoxdur. Sadəcə, uzun illər dövlətin maraqları əleyhinə işləyən E.Milli öz səhvini anlayıb və hakimiyyətin xalq üçün fəaliyyət göstərdiyini etiraf edib. Əgər kimlərsə xalqa, xalqın və dövlətin maraqlarına xidmət göstərirsə, yaxud hakimiyyətin siyasətini dərk edərək, yanlış yoldan geri çəkilirsə, həmin insanlar xalqın və dövlətin maraqlarını satan Ə.Kərimli və s. ünsürlərin gözlərində düşmənə çevrilirlər. Bu qədər bəsit...

***Rövşən RƏSULOV***

# Brüsseldə antimilli qüvvələr ermənilərlə həmrəylik nümayiş etdiriblər

***Brüsseldə 3-4 nəfər erməni lobbisindən maliyyələşən antimilli qüvvələr aksiya keçirməyə cəhd ediblər. Həmin şəxslər ölkəmizin milli və dövlətçilik maraqlarına qarşı çıxmaqla və müxtəlif pozucu şüarlar səsləndirməklə, yarıtmaz və şivən qrupu üzvləri olduqlarını nümayiş etdiriblər. Söhbət etdiyimiz müsahiblərimiz Brüsseldə aksiya keçirməyə cəhd edən "azərbaycanlılar"ın erməni maraqlarına və erməni lobbisinin təsiri altına düşən şəxslər olduqlarını bildirdilər.***

"Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: **"Aksiya keçirən "azərbaycanlılar" erməni lobbisinin təsir dairəsinə düşənlərdir"**



- Azərbaycan Prezidentinin istənilən xarici səfəri ölkəmizin beynəlxalq nüfuzunun daha da güclənməsinə, dünya dövlətləri arasında mövqeyinin möhkəmlənməsinə xidmət edir. Bu səfərlər Prezidentin şəxsi səfərləri deyil və ona görə edilir ki, Azərbaycanın milli və dövlət maraqları beynəlxalq səviyyədə daha etibarlı qorunsun. Prezidentin xarici səfərləri, həm də dövlətimizin suverenliyinin və müstəqilliyinin bir göstəricisidir. Bu baxımdan, səfər edilən xarici ölkədə istənilən qrupun, dəstənin Prezidentin səfərinin əleyhinə hansısa aksiya keçirməsi qəbuledilməzdir və birmənalı şəkildə ölkəmizə, dövlətimizə, Vətənimizə qarşı atılan addım kimi qiymətləndirilməlidir. Belələrinin ölkənin imicinə vurduğu zərbə düşmənlərin hərəkətlərindən daha betərdir. Şübhə etmirik ki, Prezidentin Brüssel səfəri zamanı orada aksiya keçirən "azərbaycanlılar" erməni lobbisinin təsir dairəsinə düşənlərdir. Məhz erməni lobbisindən aldıqları vəsaitlər hesabına xaricdə yaşayır və anti-Azərbaycan fəaliyyəti göstərirlər. Erməni lobbisinin də məqsədi bəllidir. Onlar bütün sahələrdə, o cümlədən də, bu cür informasiya savaşı cəbhəsində Azərbaycanı zəif duruma salmaq istəyirlər ki, Dağlıq Qarabağ problemi ilə bağlı mübarizəmizdə mövqeyimiz güclü olmasın. Hesab edirik ki, dünyada gedən siyasi proseslərdən baş çıxara bilən həmvətənlərimiz, xüsusən də, gənclərimiz belə avantüristlərin hərəkətlərinin əsl mahiyyətini anlayırlar və onların xəyanətlərinə qiymət verəcəklər.

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: **"Antimilli qüvvələr aksiya qarşılığında ermənilərdən pul alıblar"**



- Xaricdə fəaliyyət göstərən antimilli qüvvələr erməni lobbisi tərəfindən maliyyələşən qüvvələrdir. Demək olar ki, bu qüvvələrin bir məqsədi var: Beynəlxalq aləmdə Azərbaycanın nüfuzuna xələl gətirmək və gözdən salmaqdır. Lakin onların bu cür cəhdlərini dəfələrlə görmüşük. Ancaq hər dəfə də bu cür cədləri uğursuzluqla nəticələnib və heç nəyə nail ola bilməyiblər. Çünki Azərbaycan dövləti öz uğurlu siyasəti ilə dünya dövlətləri arasında hörmətini qazanmış bir dövlətdir. Bir sözlə, 3-4 nəfərdən ibarət cılız insanın aksiya keçirməyə cəhd göstərməsi erməni maraqlarına xidmət etməkdən qaynaqlanır. Bu cür cılız aksiyalar, elə onların öz havadarları tərəfindən çəkilərək, sosial şəbəkələrdə yayımlanır və onların əlaltıları tərəfindən də hər hansı bir şərhlər verilir. Antimilli qüvvələr öz pozucu fəaliyyətləri qarşılığında xarici ağalarından maliyyə yardımları alırlar. Bu isə, çox utancverici hərəkətdir. Yəni buna siyasi fəaliyyət demək olmaz. Artıq həmin qüvvələrin özləri də apardıqları fəaliyyətin puç və heç nə ilə nəticələnmədiyini görürlər və dərk edirlər. Bir sözlə, onların fəaliyyətinin heç bir əhəmiyyəti yoxdur və onlar heç vaxtı heç nəyə nail ola bilməyəcəklər. Çünki bu qüvvələrin xalqımız tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Bu gün Azərbaycan dövləti Prezidentimizin apardığı uğurlu siyasət nəticəsində güclənir və bütün dünyanın beynəlxalq səviyyəli tədbirləri Azərbaycanda keçirilir. Bütün bunlar sübut edir ki, xalq öz Prezidentinin yanındadır və birmənalı tərzdə, Onu dəstəkləyir.

***GÜLYANƏ***

# Bakıda adambaşına 6 kvadratmetr yaşıllıq düşür

Yaşıllaşdırma şəhərsalma siyasətinin mühüm tərkib hissəsi olaraq şəhər və şəhərətrafı ərazilərdə ətraf mühitin sağlamlaşdırılmasına xidmət edir. Bakı şəhərində son illər ərzində davam edən irihəcmli tikintilər, əhali artımı, şəhər infrastrukturunun sürətlə böyüməsi, atmosferə buraxılan zərərli qazlar və digər antropogen amillər mövcud yaşıllıq sahələrinin qorunmasına və genişləndirilməsinə kəskin ehtiyac yaradıb. Hazırda Bakı şəhərində mövcud olan yaşıllıqların ümumi sahəsi təxminən 14 min hektardır ki, bu da adambaşına 6 kvadratmetr təşkil edir.



Ona görə də yaşıllıqların qorunması, miqyasının daha da genişləndirilməsi qarşıda duran ən mühüm vəzifədir və onların vacib olmayan tikintilər altına düşərək kəsilməsi hallarının olması yolverilməzdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi birmənalı olaraq belə hallara qarşıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə nazirliyin Dövlət Ekspertiza İdarəsinin rəisi Bilal Dadaşov mayın 14-də keçirilən mətbuat konfransında məlumat verib. "Dövlət ekoloji ekspertizasının müsbət rəyi olan layihələr həyata keçirildikdə qurumuş, təhlükə yaradan və xəstə ağaclardan başqa, ağac kəsilməsi qaydalara ziddir. Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalar çərçivəsində ağacların köçürülməsi dövlət ehtiyacları üçün yaşıllıq altına düşən torpaqlar geri alındıqda, şəhərsalma və ətraf mühitə təsirin qiymətləndirilməsi sənədlərində nəzərdə tutulan, dövlət ekoloji ekspertizasının müsbət rəyi olan layihə həyata keçirildikdə, ağac və kol bitkiləri yerüstü və yeraltı mühəndis-kommunikasiya təminatı sistemlərinə mane olduqda mümkündür.

# Ölkəyə qanunsuz yolla mobil telefonların gətirilməsi cəhdinin qarşısı alınıb

Ölkəyə qanunsuz yolla mobil telefonların gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan vətəndaşının idarə etdiyi "Nissan Maxima" markalı avtomobil Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında saxlanılıb və sürücüsü şifahi sorğu-sual edilib. Sorğu-sual zamanı vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gizlədilən və gömrük nəzarətinə mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirib. Lakin gömrük yoxlaması zamanı avtomobilin ön oturacaqlarının altında - xüsusi düzəldilən gizli saxlanc yerində 20 ədəd "Xiaomi Mi 9 SE" markalı mobil telefon, arxa buferin içində isə 5 ədəd mobil telefon qutusu aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.



# Daşkəsəndə kitab bayramı keçirilib

*Bu bayram Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunub*



Dünən Daşkəsən rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi rayon Mədəniyyət Mərkəzinin qarşısında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş XI Ənənəvi Kitab Bayramını keçirilib.

Əvvəlcə tədbir iştirakçıları kitablardan və uşaqların əl işlərindən ibarət sərgilərə baxıblar. Tədbiri giriş sözü ilə açan rayon



icra hakimiyyəti başçısı Əhəd Abıyev, ölkəmizin hər bir bölgəsində olduğu kimi, Daşkəsən rayonunda da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş ənənəvi kitab bayramının qeyd edildiyini bildirib: "Ulu Öndərimiz həmişə cəmiyyətimizdə ziyalılığa, bunun zəruri şərti olan kütləvi nəşrlərin həyata keçirilməsinə, bütövlükdə, mədəniyyətə və mədəni dəyərlərimizin təbliğinə böyük önəm verib, bu barədə dəyərli fikirlər söyləyib. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin əsasını qoyduğu ölkəmizin hərtərəfli inkişaf strategiyası Onun siyasi kursunun ən layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev Azərbaycanda kitabxana işinin inkişafına böyük diqqət və qayğı göstərir, dövrün tələblərinə uyğun islahatlar aparılır. Bu, həm də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mədəni quruculuq siyasətinin uğurla davam etdirilməsinin göstəricisidir. Bunun bariz nümunəsidir ki, bu gün Daşkəsən Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində əsaslı təmir işləri aparılıb. Kitab fondu yeni-yeni nəşrlərlə mütəmadi zənginləşdirilir, rayonumuzda kitaba olan marağı daha da artırmaq üçün rayonun kənd və qəsəbələrində geniş təbliğat işləri davam etdirilir".

Tədbirdə Daşkəsən Şəhər 2 saylı Körpələr Evi-Uşaq Bağçasının fidanlarının və məktəblilərin bir-birindən rəngarəng kompozisiyaları, bədii qiraət nümunələri maraqla izlənilib.

Rəngarəng mahnı və rəqslərlə davam etdirilən kitab bayramı şən ovqatla sona çatıb.

**R.HÜSEYNOVA**



# İnnovasiya və sahibkarlıq XXI əsrin açarıdır

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan "İnnovasiya və sahibkarlıq XXI əsrin açarıdır" mövzusunda konfrans keçirilib.

"Boulevard Hotel Baku"da təşkil olunan elmi konfransda təhsil nazirinin müavini Firudin Qurbanov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, tələbə təşkilatlarının rəhbərləri, ölkə ali təhsil müəssisələrinin TEC sədrləri iştirak ediblər.

UNEC-in Elm və innovasiyalar üzrə prorektoru, professor Sakit Yaqubov Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurlardan söz açıb. Heydər Əliyevin gənclərin yüksək ixtisaslı və peşəkar kadrlar kimi hazırlanmasına ciddi önəm verdiyini diqqətə çatdıran S.Yaqubov bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Ölkə başçısının elm və təhsil sahəsindəki müvafiq fərman və sərəncamlarından irəli gələn dövlət proqramlarının icrasına uyğun olaraq, son illərdə UNEC-də iqtisad elminin və təhsilinin inkişafı istiqamətində kompleks tədbirlərin həyata keçirildiyini vurğulayan S.Yaqubov UNEC-də müəllim və tələbələrin elmi fəaliyyətinin daha da artırılması istiqamətində həyata keçirilən tədbirlərə toxunub. UNEC-in pedaqoji heyətinin nüfuzlu elmi bazalara daxil olan jurnallarda məqalələrinin sayının nəzərəçarpacaq dərəcədə artdığını qeyd edib.

Nazir müavini İntiqam Babayev Ulu öndərin zəngin həyat və fəaliyyətinin hər zaman gənclər arasında təbliğ və tədqiq edilməsinin zəruriliyini vurğulayaraq, elmi konfrasın keçirilməsinin bu baxımdan böyük əhəmiyyət kəsb etdiyini bildirib. İ.Babayev Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan yeni hədəflərə və çağırışlara hesablanan dövlət siyasətinin tərkibində insan kapitalının önə çəkildiyini, gənclərin bilikli və savadlı olması məqsədilə uğurlu addımların atıldığını qeyd edib. Azərbaycanda gənclərin məşğulluğunun dəstəklənməsi, onlar arasında sahibkarlığın təşviq edilməsi istiqamətində görülən işlərə toxunan İ.Babayev UNEC ilə nazirlik arasında həyata keçirilən layihələrdən söz açıb. UNEC tələbələrinin bilik və bacarıqları həm ölkədə, həm də beynəlxalq miqyasda rəqabətədavamlı mütəxəssislər olacaqlarından əminliyini ifadə edib.

Təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan gəncliyinin ölkədə gedən bütün proseslərdə fəal iştirak etdiyini bildirib. Hər bir dövlətin gücünün onun intellektual potensialında olduğunu, bunun isə elm və təhsilin hesabına formalaşdığını diqqətə çatdıran F.Qurbanov əmək bazarının tələbinə uyğun mütəxəssis kimi yetişmək üçün fundamental biliklərə yiyələnməyin vacibliyini qeyd edib.

Konfransda UNEC "Emprik tədqiqatlar mərkəzi"nin rəhbəri, "Beynəlxalq iqtisadiyyat" məktəbi üzrə TEC elmi rəhbəri Xətai Alıyev "Uğurun açarı: Tədqiqat marağından elmin zirvəsinə", TEC sədri Nərmin Heydərova "Tələbə Elmi Cəmiyyətinin bu günü" mövzularında çıxış ediblər.

Konfransda respublika gənclərinin elmi potensialının artırılması və universitetlərində fəaliyyət göstərən TEC-lərin işinin təkmilləşdirilməsi və düzgün koordinasiyası məqsədilə UNEC TEC tərəfindən Azərbaycan Tələbə Elmi Cəmiyyəti Alyansının (ATECA) yaradılması təklifi irəli sürülüb. Konfrans bölmə iclasları ilə öz işini davam etdirib.

# Gültəkin Hacıbəyli hər an xəbərçiliyə və satmağa hazırdır

*Çünki nankorluq onun xislətindədir*

***"Milli Şura"nın "primadonnası" Gültəkin Hacıbəyli ayda-ildə bir dəfə görünərək başlayır "ağıl verməyə". Elə bu günlərdə "Milli Şura"nın mini-aksiyalarının başlanmasına rəvac verən G.Hacıbəylinin məqsədi də bəllidir - ilk növbədə, Azərbaycanın beynəlxalq arenadakı yüksək mövqeyinə, yerinə və roluna kölgə salmaq. Ancaq bu satqından heç də geri qalmayan AXCP sədri Əli Kərimli ilə birlikdə xarici ölkələrdə fəaliyyət göstərən ermənipərəst anti-Azərbaycan meyilli qüvvələrə nökərçilik göstərməklə, mənfəət əldə etmək üçün dəridən-qabıqdan çıxırlar. Bu, o G.Hacıbəylidir ki, hər sifətdə ola bilir. G.Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəni 180 dərəcə dəyişən, Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - nankorluq.***

Xalq yaxşı bilir ki, bu fərdlər uzun illərdir ki, siyasi fəaliyyətlərindəki xainlik, dönüklük, satqınlıq və öz şəxsi maraqları üçün hər kəsi qurban verməklə məşğuldurlar. Məhz bu səbəbdən, guya Azərbaycan əsgərlərinin səngərlərdə əliboş (?!-R.H.) dayandığı və Azərbaycan Ordusunun silah-sursatın "sınıq və yararsız" olduğu haqda sərsəm çıxış edən G.Hacıbəyli ermənilərin sevimlisinə çevrilib...

Əlbəttə, erməni mediası həmin böhtanlı fikirləri dərhal ictimailəşdirdi və bununla da düşmən və işğalçı ölkə, necə deyərlər, əlinə "kozır" aldı ki, sonrakı müddətdəki informasiya müharibəsində anti-Azərbaycan fəaliyyətində bacardıqca istifadə etsin. Bax, budur G.Hacıbəylinin siması, əxlaqı və mənəviyyatı. Ancaq bu əxlaqsız və satqının bu gün bir neçə yüz adamın qarşısına çıxıb "haqq-ədalətdən" danışması, ümumiyyətlə, heç bir çərçivəyə sığmayan bir haldır. Çünki bu fərd hələ deputat olduğu dövrlərdə onlarla qaçqının və əlillərin və şəhid ailələrinin haqqına girərək, dövlətin onlara aid etdiyi torpaqlara güc yolu ilə sahib olurdu.



***Xalis satqın olan Gültəkin Hacıbəyli***

Bu tarixi faktordur ki, satqınlıq tarixən əxlaqın və mənəvi prinsiplərin aşınmasının göstəricisi kimi dəyərləndirilib. Naturasında xəyanət olan kəslər üçün isə satqınlıq etmək adi bir şey olub. Məhz bunun nəticəsidir ki, ağlı başında, əqidəsi bütöv olan heç kim satqınları sevməyib. Satqınlara yalnız satqınlar dəstək veriblər ki, bu da "taylı tayını tapar" məsəlinin hər zaman özünü doğrultmasından irəli gəlir. O da məlumdur ki, satqınlıq bütün dövrlərə xas xüsusiyyətdir. Elə Azərbaycanın müasir siyasi səhnəsində də buna dair kifayət qədər nümunə var. Satqınların ənənəvi müdafiəçilərinin sayı da istənilən qədərdir. Bu baxımdan, Gültəkin Hacıbəyli ilə Əli Kərimli bir medalın iki üzü olaraq, hər ikisinin xisləti, məhz satılmağa köklənib. Yəni bu insanlar ancaq bazar jarqonu ilə danışırlar. G.Hacıbəyli alınıb-satılmağı gözəl bilən adamdır. Çünki vaxtilə Azərbaycan iqtidarını bizdən daha yaxşı müdafiə edib. Deməli, o, bunu mandata, mövqeyə və statusa malik olmaq üçün edib. Heç kim zəmanət vermir ki, bu insanlar bir başqa xırda məsələyə görə dövləti və hakimiyyəti getdikləri yolda satmayacaqlar. G.Hacıbəyli alqı-satqı məsələləri üzrə mütəxəssisdir. Ə.Kərimli də satılıb satmaqda usta olsa da, heç kimə lazım deyil. Milli xəyanətkarların yeri tarixin zibilliyidir və onlar sona qədər həmin zibillikdə qalacaqlar. Göründüyü kimi, əlavə şərhə ehtiyac yoxdur. Çünki tarix və onun canlı şahidləri heç nəyi və heç kimi unutmur. Necə deyərlə, hər şey elin gözü qabağındadır. Ən böyük tərəzi də, məhz odur.

**Rəfiqə HÜSEYNOVA**

# Orduxanların Brüssel klounluğu

*Və ya erməni lobbisinin sifarişi ilə polyaçılik ənənəsi*

***Özlərini zorla ictimai rəyə "siyasi mühacir" kimi sırımağa cəhd edən antimilli ünsürlərin mayın 13-də Brüsseldə klounluq vasitəsi ilə nümayiş etdirmələri, əslində, bir daha təsdiq etdi ki, onların xainlik fəaliyyətləri birbaşa erməni lobbisinin, erməni diasporunun sifarişləri əsasında həyata keçirilir. Daha dəqiq desək, ortada açıq-aşkar düşmənçilik məqsədi dayanır və məqsəd, ümumiyyətlə, erməni marağından qətiyyən fərqlənmir.***



### Erməni diasporundan xeyli məbləğdə təlxəkpulu alınıb

Azərbaycan dövlətinin və xalqının əleyhinə fəaliyyət göstərən Orduxan Teymurxan və ətrafında cəmləşmiş özü kimi üç-beş nəfər siyasi yoluğun sözdə etiraz aksiyası keçirmək cəhdləri, söz yox ki, onların Avropada fəaliyyət göstərən erməni diasporasından, diasporanın maliyyələşdirdiyi xarici fondlardan xeyli məbləğdə təlxəkpulu almalarına dəlalət edir. Əbəs deyil ki, onlar aldıqları xəyanət pullarının qarşılığında əməlli-başlı canfəşanlıq göstərir, polyaçılıqlərini, təlxəkliklərini sosial şəbəkələrdə yayaraq, bu vasitə ilə boyunlarına aldıqları ləyaqətsizlik, mənəviyyatsızlıq və bişərəflik öhdəliklərini erməni aşnalarına məruzə edirlər. Bu adamlar hakimiyyətə deyil, Azərbaycan dövlətinə və xalqına qarşı düşmən münasibətini, artıq gizlətmirlər və pərdələməyə çalışmırlar.

### Bu, eyni zamanda, deqradasiyaya uğramış radikalizm və dağıdıcılıq amilinin faktiki süqutu oldu!

Sosial şəbəkələrə canlı yayım vasitəsi ilə qoşulan mağara təfəkkürlü ünsürlərin "plintus" səviyyəli oyunbazlıqları onların təlxəklik obrazlarını deyil, həm də əxlaqsızlıq, tərbiyəsizlik, cılızlıq və səviyyəsizlik təfəkkürlərini ortaya çıxarmış olur. Ümumiyyətlə, heç bir milli heysiyyata sahib olmayan antimilli məxluqların sözügedən cəhdləri elə ətrafdan keçən avropalıların da gülüş hədəflərinə çevrilib. Əks halda, beş-üç nəfərin oyunbazlıqlarına tamaşa edənlər də tapılardı. 3-4 nəfər mənəviyyatsız erməni köləsinin etiraz təşkil etmək cəhdi onların iddialarının kimsə tərəfindən dəstəklənmədiyinə əyani sübutdur. Yəni görünən, həm də bu oldu ki, Orduxan Teymurxanın təlxəklik səhnəsi ucuz şoudan başqa bir şey deyil. Bu, eyni zamanda, deqradasiyaya uğramış radikalizm və dağıdıcılıq amilinin faktiki süqutu oldu!

### Onlar ermənilərin sifarişlərini yerinə yetirməklə özlərini, sözün əsl mənasında, milli xəyanətin zirvəsinə yüksəltdilər

Daha bir reallıq, həm də ona dəlalət edir ki, sözügedən xainlər toplumu Azərbaycan dövlətinin və xaricdəki diasporumuzun erməni işğalına son qoymaq istiqamətində səylərinin zəifləd ilməsinə çalışırlar, buna görə də, erməni lobbisinin tapşırıqlarına əsasən, dövlətimizi gözdən salmağa cəhdlər göstərirlər. Çünki istər erməni lobbisi, istərsə də onların Orduxan kimi təlxəkləri yaxşı bilir və dərk edirlər ki, Azərbaycan dövləti ən yüksək və ali tribunalarda Qarabağı işğalı faktı barədə dəlillərə və sübutlara söykənən gerçəkləri dünya ictimaiyyətinin diqqətinə çatdırırlar. Eləcə də, Brüsseldə keçirilən məlum tədbirdə də həmin məsələ növbəti dəfə qabardılıb. İşğalçı rejimi narahat edən də bu məsələdir və ona görə də, silah kimi belə xəyanətkar, satqın anti-milli ünsürlər dərhal pulla alınır, Azərbaycan dövlətinin və xalqının əleyhinə yönəldirilir. Beləliklə, fakt həm də budur ki, onlar Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsindən, dövlətimizin uğurlarından qıcıqlanan və narahat olan ermənilərin sifarişlərini yerinə yetirməklə özlərini, sözün əsl mənasında, milli xəyanətin zirvəsinə yüksəltdilər.

Sonda isə, bələləri barədə bir həqiqət ortaya çıxır - onların özlərini azərbaycanlı adlandırmağa mənəvi haqları yoxdur və çox qısa zamanda, orduxanlar və onun kimi bişərəflik simvolları, məhz Azərbaycan dövlətinin və xalqının qarşısında xəyanət və satqınçılıqlarına görə, mütləq cavab verməli olacaqlar!

***Rövşən NURƏDDİNOĞLU***

# "Nar" gənclərin intellektual inkişafına töhfə verməyə davam edir

***Ölkənin ən gənc mobil operatoru "Nar"-ın dəstəyilə baş tutan "Breyn Rinq" intellektual bilik yarışının on üçüncü mövsümünün ilk finalçılarının adları bəlli olub. Belə ki, kubok uğrunda mübarizədə "Gəncə" və "Nar" komandaları, eyni zamanda daha iki qalib komanda yarışacaq.***



Komanda şəklində yarışda iştirak edə bilməyən şəxslər üçün hər həftəsonu "Nar" öz "Facebook" səhifəsində xüsusi müsabiqə keçirir. "Breyn Rinq"-in efirdə yayımlandığı saatda səhifədə paylaşılan suala ən tez cavab verən istifadəçilər müxtəlif hədiyyələrlə təltif edilirlər. Aprel ayının intellektlərinin adları isə artıq məlumdur: Əli Məmmədov, İsmayıl Əliyev, Məhbub Osmanov və Rəşad Səttarlıdır.

Qeyd edək ki, "Breyn Rinq" bilik müsabiqəsində respublikanın 17 bölgəsi və 11 ali məktəbini təmsil edən 34 komanda iştirak edir. Yarışlar hər həftənin bazar günü saat 20:00-da İctimai Televiziyada yayımlanır. İntellektual oyunun qalibi iyun ayında məlum olacaq və qalib komanda "Nar" kubokunun sahibi olacaq. Gənclərin maariflənməsinin, dünyagörüşünün və analitik düşüncə bacarığının inkişafının cəmiyyət üçün əhəmiyyətini anlayaraq, "Nar" öz Korporativ Sosial Məsuliyyət strategiyası çərçivəsində ilboyu müxtəlif layihələrə dəstək verir ki, "Breyn Rinq" bilk müsabiqəsi də bunlardan biridir. Ətraflı məlumatı https://www.facebook.com/Narofficial hesabından və https://nar.az/ saytından əldə etmək mümkündür.



İLHAM

# Ay sənə nə deyim, Mark Zuckerberq!

***Azərbaycan satirasının ustadı, filosof və müəllim Mirzə Ələkbər Sabirin belə bir satirik beyti var: "Əcnəbilər seyrə balonlarda çıxır, biz hələ avtomobilə minməyirik." Deyirəm, ölməz satira ustadı bugünkü dövrümüzün 6 milyard insanlarından biri olsa idi, yəqin ki, fərqli beyt yazardı. Axı bu gün elə soydaşlarımız var ki, müxtəlif markalı avtomobillərdən kolleksiya düzəldir. Ən azı, elə bir ailə tapmazsan ki, o ailədə avtombil olmasın. Bu azmış kimi, balonların yeni və müasir versiyası olan "Mİ-8 MTV1" markalı vertolyot sahibi olan insanlar da var. Həmin xod gedən insanlar səhər qəlyanaltılarını Bakıda, günorta naharını İstanbulda, axşam istirahətini isə Fransada Eyfel qülləsindən Parisin bərq vuran sayrışan gözəlliyini seyr etməklə keçirir. Elmi-texniki, texnoloji tərəqqi inkişaf etdikcə, insanların xarici görünüşü kimi, daxili aləmləri də dəyişir.***

Artıq yüksəliş o həddə çatıb ki, söz-sənət sahibi Abbas Tufarqanlı demişkən, oğullar atanı, qızlar ananı, gəlinlər də qayınananı bəyənmir. Yeni gözlərini açıb, müasir dövrün "işıq sürətinə bərabər" inkişafını görənlər, dərhal özlərinə məxsus həyatlarını, yaşayışlarını qurmağa çalışırlar. Bu zaman ailə dəyərləri, tarixi adət-ənənə arxa plana keçir. Əgər çaşıb, məsləhət versən, yol göstərsən, sənə elə cavab verərlər ki, dəymişin qala-qala, kalın tökülər. Əvvəllər uşaq gözünü açanda, dedikləri ilk söz "ana", "ata" olurdusa, indi əl-qol işarələri ilə telefon istəyir. Valideyn də, uşağının bu hərəkətini dəcəllik kimi qiymətləndirib, irişir. Hətta uşağının bu qoçaqlığını evinə gələn qonaq-qaraya da danışıb, şəstlə lovğalanır da. Amma dərk etmir ki, göz-görəsi, yəni şüurlu şəkildə indidən övladının "toyu"nu edir. Telefona asılılıq, sosial şəbəkələrə bağlılıq o uşağın həyatını alt-üst edəcək. Müasir dövrdə baş verən cinayətlərin, boşanmaların az qala 60-70 faizi sosial şəbəkələrin və telefonların yaratdığı fəsadların payına düşür. Elə uzağa getməyək, bir neçə gün əvvəl Xaçmaz rayonundan olan gənc qadın telefonunu əlindən aldığına görə, 31 yaşlı ərinin ürəyinə bıçaq soxmaqla, onun həyatına son qoyub. Yenicə ailə quran gənc qadınların facebook-da tanış olduqları oğlanlara qoşularaq qaçmaları barədə kifayət qədər faktlar var. O gün televiziyaların birində boy-boya 8 kişinin oturub, öz qəzavü-qədərlərini altdan-altdan irişən aparıcıya nəql etdikləri seyr etdik. Səbəb yenə də, qadınların sosial şəbəkələrdə tanış olduqları, manyakların yağlı vədlərinə aldanaraq, uşaqlarını və ərlərini atıb qaranlıq tunelə doğru qaçmalarıdır. Ona görə də, el məsəlidir, körpə vaxtı qızını döyməyən ana, böyüyəndə dizinə döyər. Çoxları, o cümlədən, basıb-bağlayan və dil qəhrəmanları olan mütəxəssislər iddia edirlər ki, sosial şəbəkələrdən gələn bəlanın qarşısını almaq üçün maarifləndirici söhbətlərə və müzakirələrə ehtiyac var. Adama deyən lazımdır bığlı və saqqallı kişini və ya kifayət qədər yaşı-başı olan qadını sözlə başa salmaq, onu sosial şəbəkələrin gətirdiyi bəlaları anlatmaq olar? Döymək, təpikləmək də mənasızdır. Çünki artıq sosial şəbəkə azarı onun qanına-canına hopub. Bəlkə də, narkotika aludəçisini sağaltmaq, onu üzləşdiyi fəlakətdən xilas etmək olar. Ancaq inanmıram ki, sosial şəbəkə xəstəsini sağalmaq mümkün olsun. Fikir verin, bir qədər əvvəl küy düşdü ki, bəs, Mark Zuckerberq facebook istifadəçilərinin əksəriyyətini özünün qara siyahısına salıb. Siyahıdan adını çıxarmaq istəyənlər, bir-birinə nöqtələr göndərməlidirlər. Həngamə bundan sonra başladı, evdə ərinə sifət bozardan və ya hər fürsətdə həyat yoldaşını acılayan kişilər, zəhər tuluğu olan oğlan və qızlar facebook-da oldular quzu. "Dostluğ"undakı tanışlarına "qadan alım-başına dönüm, mənə nöqtələr göndər" yazanlar da oldu. Hətta tanışlarına telefonla zəng edib, "ölmüşəm, məni yedən götür, "nöqtə" göndərməsən, səhifəm bağlanacaq" deyib, yazıq-yazıq gileyi-güzar edənlər də oldu. Yəqin ki, Mark qağa da 30 mərtəbəli ofisinin 12-ci mərtəbəsindəki iş otağından yaratdığı bu xaosu seyr edib, qəh qəhə çəkərək, gülür. Hətta güzgünün önündə dayanıb, qoçaqlığından qürrələnir də. Biz isə, nə deyə bilərik ki, Ramazan ayı olduğundan, Mark Zuckeberqi yamanlamaqla ürəyimizi boşalda da bilmərik. Qalsın, onunla haqq-hesab Ramazandan sonraya. Sosial şəbəkə istifadəçilərinə isə, bir qədər ehtiyatlı olmağı məsləhət görərdim.

# Evtanaziya: yaşamaq və ölmək hüququ arasında seçim

***Təbabətin inkişafı da evtanaziyanın qanunauyğunluğunun tərəfdarlarının irəli sürdükləri dəlilləri təkzib edir. Belə ki, hələ bu yaxınlara qədər sağalmaz sayılan bir çox xəstəliklər və zədələr hazırda müvəffəqiyyətlə müalicə edilir. Xəstənin vəziyyətinin ümidsizliyi haqqında olan təsəvvürlər isə, təbabətin tərəqqisi nəticəsində dəyişilir. Evtanaziyaya izn verilməsi isə, ağır xəstələrin diaqnostikasının və müalicəsinin yeni, daha səmərəli yollarının axtarışında müəyyən psixoloji əyləc ola bilər.***

A.Mustafayeva yazır: "Nəhayət, evtanaziya ağır xəstəyə yardım göstərən vicdansız həkim üçün asan çıxış yolu ola bilər. Axı reanimasiya təkcə külli miqdarda maddi vəsaitlər deyil, həmçinin, müalicə və qulluq üçün tibb heyətinin fiziki və ruhi qüvvəsinin böyük gərginliyini tələb edir. Bu cür xəstələrdə defekasiyanın, sidiyə getmənin pozulması, yara və zədələrin irinli proseslərlə ağırlaşması müşahidə olunur. Bütün bunlar ağır xoşagəlməz qoxuya səbəb olur, mələfələrin tez-tez dəyişilməsini tələb edir və s. Bu cür xəstələri yedirib-içizdirmək lazımdır, onlarda yataq yarası əmələ gəlməsinə imkan verməк olmaz, cürbəcür ağırlaşmalarla mübarizə aparmaq gərəkdir. Belələri ilə işləmək həkimdən və onun köməkçisindən səbr, mərdlik və alicənablıq tələb edən ifrat gərginliklə bağlı ağır fiziki zəhmətdir. Bu, heç də bütün tibb işçilərinin daşıya biləcəkləri yük deyil. Evtanaziyaya izn verilməsi isə, bir sıra hallarda, həkimə bu ağır və xoşagəlməz işdən yayınmaq üçün psevdo-əxlaqi əsaslar verə bilər. Digər tərəfdən, lazımi müalicənin və qulluğun olmaması xəstəni ölümü tezləşdirmək tələbi irəli sürməyə vadar edə bilər və müalicə hərəkətlərinin dayandırılması üçün bəhanəyə çevrilə bilər.

Beləliklə, sadalanan arqumentlər həkimlərin əksəriyyətinə evtanaziyaya tərəfdar olmaq hüququ verir. Aktiv müalicə, ağrıların sakitləşdirilməsi, ölməkdə olan xəstəyə ruhi rahatlığın yaradılması, onda sağalacağına inamın qorunub-saxlanması evtanaziyanın heç bir üsul və vasitələrinə yol verməyən təbabətin haqlı və əsl humanist prinsipidir.

Fikrimizcə, evtanaziyaya tibbi və əxlaqi-etik baxımdan ziddiyyətli yanaşmalar bu təzahürün ziddiyyətli hüquqi qiymətləndirilməsinə səbəb olmuşdur." Bu, bir sıra dövlətlərin qanunvericiliklərində də öz əksini tapmışdır. Məsələn, Hollandiyada uzun sürən müzakirələrdən sonra passiv evtanaziyaya icazə verilməsi qanunvericiliyə, rəsmi olaraq, daxil edilmişdir. Lakin bu, hansısa sui-istifadələrdən istifadəni istisna edən müəyyən düzəlişlərlə gerçəkləşmişdir. İngiltərədə isə, əksinə, sürəkli müzakirələrdən sonra tibbi praktikada hər hansı evtanaziyanın tamamilə qadağan edilməsi haqqında qanun qəbul edilmişdir.

Bəzi ölkələrdə paradoksal vəziyyət yaranmışdır: tibbi əxlaqi-etik və hüquqi baxımdan, mübahisəli olan evtanaziya, artıq tibbi təcrübəyə və qanunvericilik normalarına tətbiq edilir. İnsan hüquqlarının təmin edilməsi bəhanəsi altında təcrübə nəzəriyyəni sıxışdırır, onu qabaqlayır və təshihlər edir, nəticələri sınaqdan keçirməyə tələsir və səbrsizliklə yeni qərarlar tələb edir. Bu cür şərait evtanaziyanın, hətta mövcud qanun normalarına baxmayaraq, tətbiq edilməsinə səbəb olur. Belə ki, J.M.Mannın fikrincə, passiv evtanaziya Böyük Britaniya həkimləri tərəfindən həm yeni doğulan körpələrlə bağlı, həm də ahıl yaşlılarla əlaqədar istifadə edilir. Halbuki bu, İngiltərə qanunvericiliyi ilə qadağandır. Hesab edirik ki, göstərilən durumlar insanın ləyaqətli ölüm hüququnun hüquqi qiymətləndirilməsində böyük çətinliklər yaradır. Amma bəzi dövlətlərdə bu hüquq qanunvericiliklə də rəsmiləşdirilmişdir. F.Bimstorboyerin fikrincə isə, hələ 1977-ci ildə ABŞ-da dünyada, ilk dəfə olaraq, "İnsanın ölmək hüququ haqqında" federal qanun qəbul edilmişdir. Bu qanuna əsasən, sağalmaz xəstələr reanimasiya aparatlarının söndürülməsini arzu etdikləri ilə bağlı sənədi rəsmiləşdirə bilərlər.

Bizə elə gəlir ki, bu qanunun ifadə tərzi heç də uğurlu deyil, çünki ölüm hüququnu həyata keçirən insan öz arzusunun üçüncü şəxslər tərəfindən (ola bilsin ki, onların mənəvi prinsiplərinə və peşə biliklərinə zidd olaraq) icra edilməsinə təkid edəcək. Bu isə, əslində, mərhəmətliliyə görə, qətli leqallaşdırır və öz növbəsində, çoxlu sui-istifadə hallarına apara bilər. Buna yol verməmək məqsədilə qanunun həmin ifadə tərzini "insanın ləyaqətli ölmək hüququ"na (yəqin ki, həlelik, heç bir cəmiyyətin bütün vətəndaşlarını onunla təmin etmək üçün iqtisadi imkanları yoxdur, burada biz xospisləri nəzərdə tuturuq) dəyişmək lazımdır.

İ.N.Lavrikovun qənaətinə görə, xarici dövlətlərin əksəriyyətində mühakimələrin ziddiyyətliliyinə baxmayaraq, passiv evtanaziya tədricən ictimai rəy tərəfindən, bəzi ölkələrdə isə, qanunla da qəbul olunmaqdadır. Belə ki, İsveç və Finlandiyada həyatın mənasız yerə saxlanmasının dayandırılması yolu ilə passiv evtanaziya qanuna zidd sayılmır. Lakin müalicənin dayandırılması haqqında qərar qəbul edilməsi üçün əsas səbəb pasiyentin iradəsinin sərbəst və düşünülmüş ifadəsidir.

Tibb işçilərinin məhkəmə tərəfindən aşkarlanan cinayəti Avstriya ictimaiyyətinin kəskin narazılığına, səhiyyə müəssisələri qarşısında qorxu və inamsızlığa səbəb oldu. Ekspertlərin fikrincə, bu müəssisələrin vəziyyətlərinin yaritmazlığı "tibb bacıları"nı qətllər törətməyə sürükləmişdir. Tibb bacılarının və xəstə baxıcılarının çatışmazlığı üzündən onlar, xüsusilə, ağır xəstələr şöbəsində həddən artıq işləmək məcburiyyətində qalmışdılar.

Bununla bağlı olaraq, qeyd etmək lazımdır ki, bizim müalicə müəssisələrimizdə tibb personalının iş şəraiti Avstriya ilə müqayisədə daha pisdir. Passiv evtanaziyanın keçmiş sovet məkanında leqallaşdırılması məsələsinin həlli zamanı bu amili nəzərə almamaq olmaz.

Praktikada evtanaziyanın kifayət qədər dəqiq təsnifatı tətbiq edilir.

1) Medical decision concerning end of life (MDEL) və ya "həyatın sonu haqqında tibbi qərar". MDEL-i iki böyük kateqoriyaya bölmək olar:

a) Həqiqi evtanaziya - pasiyentin ölümündə həkimin aktiv iştirak etdiyi hallar. Bu, əslində, xəstənin məlumatlandırılmış razılıqla (bax: yuxarı) onun həkim tərəfindən həyata keçirilən qətlidir;

b) Həkimin köməyi ilə suisid (Phisician assisted sucide - PAS), bu halda, həkim ölüm dərmanı hazırlayır və xəstə onu özü qəbul edir.

2) Həkimin xəstənin həyatını uzatmağa imkan verən təyinatlardan imtina etməsi, yaxud iztirabları yüngülləşdirən dərmanların (məsələn, ağrıkəsici və ya yuxu dərmanı) verilməsi üzrə tədbirlərin həyata keçirilməsi və ya onların dozasını artırmaqda pasiyentlə razılığa gəlməsi halları. Nəticədə, xəstənin həyatı qısalır. Bu, əsasən, tiryək tərkibli analgetiklərin qəbul edilməsidir. Bu qrupa, həmçinin, ümidsiz xəstəyə onun qəbul etdiyi preparatların ölümcül dozası haqqında şüurlu məlumatın verilməsi də aiddir.

Hazırda cəmiyyətdə evtanaziya probleminə yanaşmada bir-birinə zidd olan iki fikir var: liberal və konservativ. Hər bir yanaşmanın tərəfdarları evtanaziyanın lehinə öz arqumentlərini irəli sürürlər.

Evtanaziyanın tərəfdarları, heç olmasa, müalicənin dayandırılması formasında da olsa, evtanaziyanı bir neçə mülahizəyə görə mümkün hesab edirlər:

- Tibbi - xəstənin iztirablarına son qoymaq üçün ölüm ən axırıncı vasitədir.
- Xəstənin öz yaxınlarına qayğısı - "onları zəhmətə qatlaşmalarını istəmirəm".
- Xəstənin eqoist motivləri- "ləyaqətlə ölmək istəyirəm".
- Bioloji - populyasiyada patoloji genlərin toplaşmasının nəticəsi olaraq, insanın bioloji növ kimi sıradan çıxması təhlükəsinə görə keyfiyyətsiz adamların məhv edilməsinin vacibliyi.
- Məqsədəuyğunluq prinsipi - yeni daxil olan yüngül zədəli xəstələrin reanimasiyası üçün aparatlardan istifadə etmək məqsədilə ümidsiz xəstələrin həyatını qorumaq üzrə uzun sürən və nəticəsiz tədbirlərin dayandırılması.
- İqtisadi - bir sıra sağalmaz xəstəliklərin müalicəsi və həyatın qorunması bahalı cihaz və dərmanların tətbiqini tələb edir.

Yeri gəlmişkən, sonuncu üç prinsipdən faşist Almaniyasında geniş istifadə edilmişdir: "keyfiyyətsizlər"in məhv edilməsi üzrə dövlət siyasəti, müharibənin axırlarında dərman ləvazimatlarının və hospital resurslarının qıtlığı ucbatından ağır yaralıların öldürülməsi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Evtanaziyanın əleyhdarları hər hansı formada digər arqumentlər gətirirlər:

- Hər şeydən öncə, dini-əxlaqi göstərişlər - "öldürmə" və "Tanrı naminə yaxınlara sevgi" (özünütəmizləmə və ağır xəstə insanlara qayğı vasitəsilə Qurtuluş yolu).
- Təbabət sahəsinə xərçəngin özbaşına sağalması ilə bağlı nadir hallar məlumdur. Təbabətin inkişafı özlüyündə ölüm və iztirabla mübarizənin mahiyyətidir (yeni müalicə üsul və vasitələrinin axtarışı).
- Cəmiyyətin fəal sosial mövqeyi zamanı imkanları hər hansı dərəcədə məhdud olan əlilləri bir şəxsiyyət kimi həyata qaytarmaq və onların, praktik olaraq, tam reabilitasiyası mümkündür.

Bütövlükdə, evtanaziyanın daha fəal və davamlı əleyhdarları ruhanilərdir. Məsələn, E.Sqreçça və V.Tambone evtanaziyanın hər hansı növünü pasiyentin həkim tərəfindən öldürülməsi faktı kimi (aktiv evtanaziya halında), yaxud pasiyentin intiharına yol verilməsi halı kimi (passiv evtanaziya) nəzərdən keçirir. Hər iki halda, Tanrının qoyduğu qanunlar pozulur.

Biz doktor Cek Kevorkyanın (ABŞ) fəaliyyəti ətrafında yaranan qalmaqalı və Hollandiyada homoseksual kişilərin, QİÇS xəstələrinin ölümlərinin gerçək səbəblənin araşdırılması nümunələrini göstərmək istərdik. ABŞ-da baş verən və geniş ictimai əks-səda doğuran faciəli bir əhvalatı yada salaq. Belə ki, 1990-1997-ci illər arasında doktor Cek Kevorkyanın assistentliyi ilə suisid nəticəsində müxtəlif formalı xərçəng xəstələri, Alsgeymer xəstələri, xroniki yorğunluq sindromu və hazırda sağalmaz olan digər xəstəlikləri olan onlarca pasiyent ölmüşdü. Cek Kevorkyan pasiyentin orqanizminə zəhər yeridilməsi üçün xüsusi qurğu hazırlamışdı. Pasiyent mexanizmi işə salan xüsusi düyməni basan kimi, o, fəaliyyətə başlayırdı. Özü də, bu, yalnız istintaqın Cek Kevorkyanın şəxsiyyəti ilə əlaqələndirə bildiyi hadisələrdir.

Müəyyən olunmuşdur ki, Niderlandda bütün ölümlərin, 2,1%-dən əvvəl, həyatın sonu haqqında tibbi qərar adlanan qərar qəbul olmuşdur. Orada evtanaziyaya və PAS-a qanunla məhdud hallarda icazə verilmişdir. Lakin onların tətbiqinin qanunauyğunluğu hələ də müzakirə edilməkdədir.

S.Q.Steçenkonun fikrincə, evtanaziya və PAS-ın tezliyi QİÇS xəstələrində rəsmi 2,1%-dən çox olmalıdır. Diaqnoz qoyulan zaman əsaslı statistik fərqlər aşağıdakı yaşlarda olan xəstələrdə aşkarlanmışdır: "evtanaziya/PAS" qrupunda pasiyentlərin 72%-i 40 və daha yuxarı yaşlı idi. Öz əcəli ilə ölənlərin arasında isə, beləlri cəmi 38% təşkil edirdi. Bu, evtanaziya və ya assistentlik edilən suisidin tətbiqi zamanı nisbi riskin mövcudluğunu güman etməyə imkan verir.

Bu "koqorta"da MDEL-in böyük tezliklərinin mümkün izahı pasiyentlərin QİÇS-lə bağlı məlumatlılığı və onun müalicəsində müasir metodların səmərəsizliyi hesab olunmalıdır.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

## ABŞ-da səsdən sürətli sərnişin təyyarəsi hazırlanacaq

ABŞ-ın "Hermeus" kompaniyası səsdən sürətli sərnişin təyyarəsinin hazırlanması layihəsinə ilkin kapitalın cəlb olunduğunu elan edib. Xarici KİV-lərin yazdığına görə, kompaniyanın ilk maliyyə tərəfdaşı Kaliforniya ştatında yerləşən "Khosla Ventures" vençur fondu olub. Cəlb edilən ümumi məbləğ və tərəfdaşların sayı barədə məlumat verməyən "Hermeus" yığılan vəsaitin layihələşdirilən təyyarənin güc qurğusunun hazırlanmasına və sınağına yönəldiləcəyini bildirib.

Kompaniyanın məlumatına əsasən, söhbət saatda 6,2 min kilometr sürətlə uça biləcək avialaynerin hazırlanmasından gedir. Bu, məsələn, Nyu-York şəhərindən Londona transatlantik uçuşun müddətini 7 saatdan 1,5 saata qədər azaltmağa imkan verəcək.

"Hermeus" səsdən sürətli ilk təyyarəsinin prototipini təxminən 5 ildən sonra hazırlamağı planlaşdırır. Belə laynerin seriyalı istehsalı isə 8-10 il ərzində baş tuta bilər. 2016-cı ildə ABŞ-ın "Virgin Galactic" və "Boom Technology", 2018-ci ildə isə "Boeing" korporasiyaları səsdən sürətli sərnişin təyyarəsi hazırlamaq barədə niyyətlərini bildirmişdilər.

## ABŞ-da ən bahalı qəhvənin bir fincanı 75 dollara satılır

ABŞ-da ən bahalı qəhvə Kaliforniyanın San-Fransisko şəhərində satılır. Xüsusi növ içkinin bir fincanının qiyməti 75 dollardır. CNN telekanalı xəbər verir ki, həmin qəhvə növü "Elida Geisha Natural" adlanır. "Klatch Coffee" kompaniyası onun dənələrinin bir funtunu (0,45 kiloqram) Panamada keçirilən hərracda 803 dollara alıb. Qovurduqdan sonra isə qiymət 1,2 min dollara qalxıb. "Klatch Coffee" hərracda cəmi 5 kiloqrama yaxın "Elida Geisha Natural" qəhvəsi alıb. Ötən il baş tutan hərracda ümumilikdə 45 kiloqram eksklüziv dənəvər qəhvə satılıb. Həmçinin kompaniya "Elida Geisha Natural" qəhvəsini internet vasitəsi ilə də satışa çıxarıb. Müştərilər onun 18 qramını 75 dollara əldə edə bilərlər.

## Dişləri möhkəmlədən 7 ərzaq

Dişlərin kalsium və fosfor kimi elementlərə ehtiyacı var. Qida rasionuna tərkibində bu elementlərin zəngin olduğu ərzaqların əlavə edilməsi dişlərin korlanmasının qarşısını alır. Minerallar diş minası ilə problemi aradan qaldırır. AZƏRTAC "MedikForum"a istinadla hansı ərzaqların qəbulunun dişlərə faydası barədə məlumat verir.

Dəniz məhsulları. Dəniz balığının tərkibindəki minerallar dişlərin möhkəmlənməsi baxımından çox zəngindir. Bu, həm fosfor, həm kalium, həm ftor, həm də omeqa-3 yağ turşuları deməkdir. Belə ki, fosfor boyun artmasında və beyin hüceyrələrinin formalaşmasında, ftor isə parodontoz və kariyesin müalicəsində əla profilaktikadır.

Süd məhsulları. Əlbəttə ki, tərkibində kalsiumun zənginliyinə görə birinci yeri süd məhsullarına vermək lazımdır. Bu ərzaq diş minasını möhkəmlətməkdən ötrü mühüm komponentdir. Süd məhsulları, həmçinin kariyesin inkişafının və dişəti problemlərinin qarşısını alır.

Meyvə və tərəvəz. Bərk meyvə və tərəvəzlər dişləri yaxşı möhkəmlədir. Alma, kələm, xiyar və bu sıradan olan digər məhsullar diş minasını ərpdən təmizləyir, diş daşının əmələ gəlməsinin qarşısını alır, qan dövranını yaxşılaşdırır və dişləri masaj edir.

Göyərti. Onların tərkibində dişlərin möhkəmlənməsi üçün zəruri olan hər şey var. Məsələn, yaşıl soğan və ispanaq dişəti qanamalarından xilas olmağa kömək edir. Göyərtinin hissəcikləri dişləri təmizləyir, bəziləri hətta onları ağarda da bilir.

Qoz-fındıq və günəbaxan tumları. Belə bir stereotip var ki, günəbaxan tumları və qoz-fındıq dişləri korlayır. Lakin düzgün yanaşmada əksinə, onlar dişi möhkəmləndirə bilir. Bu ərzaqların tərkibində yağ turşuları, kalsium, maqnezium, kalium və fosfor var. Məsələn, küncüt toxumları sayəsində dişin minası təmizlənir.

Bərk pendir. Bu ərzaq kariyesdən müdafiə edir. Pendirin hesabına minada özünəməxsus müdafiə əmələ gəlir ki, bu da zərərli bakteriyalar üçün bir səddir.

Yumurta. Bu ərzaq da kalsiumla zəngindir. Bundan başqa yumurtanın sarısında xeyli miqdarda D vitamini var ki, bu da orqanizmdə fosforun miqdarını tənzimləyir.

### ELAN

Abşeron rayonu Saray qəsəbə sakini Quliyev Telman Əbülfəz oğlunun adına verilmiş 0,10 ha sahənin "Torpağın mülkiyyətə dair şəhadətnaməsi" (JN1014A) sənədi itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nin İnformatika müəllimliyi ixtisası üzrə III kurs tələbəsi İmranlı Aytac Ziya qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Dünya çempionu: "Qonaqlar hər zaman Azərbaycan haqqında xoş fikirlər bildiriblər"



"Azərbaycan dəfələrlə dünyanın ən mötəbər idman yarışlarına uğurla ev sahibliyi edib. Bu yarışlar həmişə yüksək təhlükəsizlik şəraiti təmin edilməklə təşkil olunub. Ölkəmizə gələn bütün qonaqlar - idmançılar, nümayəndə heyətləri, azarkeşlər və digər turistlər hər zaman Azərbaycan haqqında xoş fikirlər bildiriblər". Bunu SİA-ya açıqlamasında parataekvondo üzrə ikiqat dünya və üçqat Avropa çempionu Aynur Məmmədova deyib.

Dünyanın bir çox ölkələrində yarışlarda iştirak edən idmançı, Azərbaycanda keçirilən yarışların təşkilatçılıq baxımından həmişə daha üstün olduğunu vurğulayıb: "Mən çox ölkələrdə yarışlarda iştirak edirəm. Azərbaycan idman tdbirlərinin keçirilməsində dünyada ən yaxşı təşkilatçılığı ilə seçilir. Ölkəmizdə hər zaman xarici vətəndaşlara qonaqpərvərliklə yanaşılır. Əminəm ki, mayın 29-da Bakıda keçiriləcək futbol üzrə Avropa Liqasının final oyunu da peşəkarlıqla təşkil olunacaq və təhlükəsizlik yüksək səviyyədə təmin ediləcək. "Arsenal" klubunun erməni futbolçusunun bu oyunda iştirak üçün Azərbaycana gəlməsinə heç bir maneə yoxdur. Çünki Azərbaycan tərəfi onun təhlükəsizliyinə təminat verib. İndiyədək Azərbaycanda keçirilən bir çox yarışlarda erməni idmançılar iştirak edib və heç bir problem yaşanmayıb. Çünki Azərbaycan təhlükəsiz ölkədir və burada insanlar sülh, əminamanlıq şəraitində yaşayırlar".

## Xuanfran "Atletiko"dan ayrılacaq



Xuanfran bu mövsümün sonu "Atletiko"dan ayrılacaq. "Marca" nəşrinin yazdığına görə, 34 yaşlı yarımmüdafiəçi Madrid təmsilçisinin yeni müqavilə təklifini müsbət cavablandırmayıb. O, "Atletiko"nu tərk edəcəyini bildirib.

Qeyd edək ki, bundan əvvəl Dieqo Qodin İspaniya klubundan ayrılacağını açıqlamışdı. Xatırladaq ki, Xuanfran 2011-ci ildə "Osasuna"dan "Atletiko"ya transfer olunub.

## UEFA "Mançester Siti"ni avrokuboklardan kənarlaşdıra bilər



UEFA-nın Maliyyə Feyr-Pleyi üzrə Təhqiqat Palatası "Mançester Siti"ni avrokuboklardan kənarlaşdıra bilər. SİA-nın məlumatına görə, buna səbəb "şəhərlilər"in maliyyə feyr-pleyini pozmasıdır. Palata rəhbərliyi buna görə Premyer Liqa çempionunu 1 il müddətinə diskvalifikasiya etməyi planlaşdırır. İngiltərə təmsilçisi 2014-cü ildə maliyyə feyr-pleyini pozmaqda və sponsorluq müqavilələrinin həcmi barədə yanlış məlumatlar verməkdə günahlandırılır. Həmin vaxt klub 49 milyon funt-sterlinq məbləğində cərimələnmişdi. Ancaq "şəhərlilər" bütün ittihamları rədd edib. Qeyd edək ki, "Mançester Siti" yenicə başa çatan 2018-2019 mövsümündə İngiltərə çempionu olub.

## Fikrət Orman yenidən "Beşiktaş"ın prezidenti seçilib



Türkiyənin "Beşiktaş" klubunda prezident seçkisi baş tutub. SİA-nın məlumatına görə, Hürsər Təkinoktay və klubun son prezidenti Fikrət Orman bu vəzifə uğrunda mübarizə aparıb. 4899 mümkün səsdən 2882-sini toplayan Fikrət Orman 5-ci dəfə İstanbul təmsilçisinə rəhbərlik etmək hüququ qazanıb. Fikrət Orman daha öncə 2012, 2013, 2016 və 2018-ci illərdə baş tutan seçkilərdə qalib olmuşdu.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600